HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

VERGİLƏR NAZİRLİYİ

№ 01 (741) ■ 7 yanvar 2015 www.vergiler.az Qiymәti: 40 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

**- Hörmətli xanımlar və cənablar!**

**Əziz həmvətənlər!**

2014-cü il arxada qalır. 2014-cü il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilmişdir. Ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim təsir imkanlarımız da genişlənir.

Bildiyiniz kimi, 2012-2013-cü illərdə Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasında təmsil olunurdu. 155 ölkənin dəstəyi ilə biz bu haqqı qazanmışdıq. Bu il isə Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edirdi, Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına öz dəyərli töhfəsini vermişdir.

Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Qonşu dövlətlərlə və bütün digər dövlətlərlə səmərəli əməkdaşlıq edirik. İkitərəfli əlaqələrimiz inkişaf edir. Eyni zamanda, Azərbaycan çoxtərəfli formatda öz müsbət rolunu oynayır. Xüsusilə regional inkişaf məsələlərində Azərbaycanın rolu danılmazdır. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə - siyasi, iqtisadi, enerji və digər layihələr icra edilə bilməz.

2014-cü ildə iqtisadi inkişaf təmin edilmişdir. Bu da çox önəmlidir, çünki bildiyiniz kimi, dünyada hələ də iqtisadi, maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Ümumdünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu, böyük və tarixi nailiyyətdir.

Qeyri-neft sektorumuzun inkişafı bizim üçün prioritet olaraq qalır. Şadam ki, bu il qeyri-neft sektorumuz təxminən 7 faiz artmışdır. Ölkə iqtisadiyyatına 27 milyard dollar sərmayə qoyulmuşdur. Bu da çox önəmli hadisədir. Çünki indi dünyada sərmayələrin cəlb edilməsi üçün mübarizə gedir. Azərbaycanda sərmayə qoyuluşu yüksək səviyyədədir. Əminəm ki, gələn il də belə olacaq.



Yoxsulluğun, işsizliyin səviyyəsi 5 faizdir. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Dövlət xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 8 faizini təşkil edir. Bu da nadir göstəricidir. Makroiqtisadi vəziyyət sabitdir. Valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Manatın məzənnəsi isə sabit olaraq qalır.

Siz yaxşı bilirsiniz ki, dünyada neftin qiymətinin düşməsi ilə əlaqədar müəyyən gərginliklər yaşanır, o cümlədən bizim bölgəmizdə. Azərbaycan isə sabitlik adasıdır, nümunəvi ölkədir. Ölkəmizdə istər siyasi, istər iqtisadi sabitlik təmin edilir və ediləcək. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayacaq və ildən-ilə xalqımızın rifah halı yaxşılaşacaqdır.

Sosial siyasətimiz bütün dövrlərdə bizim üçün əsas vəzifə olmuşdur. Bu il Azərbaycanda sosial infrastrukturun yaradılmasına böyük vəsait qoyulmuşdur, 60-dan çox tibb ocağı, 50-yə yaxın məktəb, uşaq bağçası tikilib təmir edilmişdir. Əminəm ki, gələn il də bu müsbət proseslər gedəcək.

Azərbaycanda inflyasiya 1,4 faizdir. Əhalinin pul gəlirlərinin artımı isə 5 faizə yaxındır. Maaşların, pensiyaların, sosial müavinətlərin ildən-ilə artırılması əlbəttə ki, insanların rifah halını yaxşılaşdırır.

Ən ağır vəziyyətdə olan soydaşlarımızın - məcburi köçkünlərin problemləri də uğurla həll edilir. Hər il 20 mindən çox köçkün yeni evlərə köçürülür. Bu il də bu məqsədlər üçün böyük vəsait ayrılmışdır və biz bu məsələni də tədricən həll edirik.

Ancaq əfsuslar olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu il də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur. Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın. Bu il vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa - bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən iki həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi - Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab vermişdir, 50-dən çox işğalçı məhv edilmişdir. Bu ilin sonlarında da buna oxşar hadisə baş vermişdir. Yenə də Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu. İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə olaraq biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var. Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çoxdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqaviləni imzalamağa hazırıq.

Bu il Azərbaycanda «Sənaye ili» elan edilmişdir. Bildiyiniz kimi, sənaye potensialımız gündən-günə güclənir. Azərbaycan bu istiqamətdə çox böyük uğurlara imza atmışdır və bu sahədə görülən işlər bu il də istisna olmamışdır. Beləliklə, bu il 230-dan çox yeni sənaye müəssisəsi açılmışdır və bu da həm işsizliyin aradan qaldırılmasına, həm də ixrac potensialımızın inkişafına öz müsbət təsirini göstərir. Biz özümüzü əsas ərzaq məhsulları ilə artıq təmin edirik. Eyni mənzərəni tikinti materialları bazarında da görmək istəyirik və biz bu məqsədə çatırıq. Bildiyiniz kimi, icra edilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi də məhz bundan ibarətdir.

Azərbaycan, eyni zamanda, yüksək texnologiyalara böyük investisiyalar qoyur və bu il bu sahədə yaddaqalan il olmuşdur. Bu il Azərbaycan ikinci peykinə sahib oldu. Noyabr ayında bu peyk Azərbaycana təhvil verildi və beləliklə, bizim indi iki peykimiz var: «Azərspace» və «Azərsky». «Azərsky» peykinin xüsusiyyəti ondan ibarətdir ki, - dünyada cəmi 20 ölkə belə peyklərə malikdir, - bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir.

Korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır. «ASAN xidmət» bu sahədə xüsusi yerə malikdir. Artıq 7 mərkəz yaradılmışdır, 3 milyon 500 min müraciət edilmişdir. «ASAN xidmət» ictimai xidmətlər sahəsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə xüsusi rol oynayır. Bu xidmətin yaradılmasından cəmi iki il keçdiyini nəzərə alsaq, görürük ki, biz nə qədər böyük irəliləyişə nail ola bilmişik. Korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi mübarizə aparılacaq, həm cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli tədbirlər görüləcəkdir.

Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. Bu il mən Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar müvafiq Sərəncam imzalamışam. Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür. Həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən Azərbaycan nadir bir ölkədir. Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır.

Bu il sentyabrın 20-də biz «Əsrin müqaviləsi»nin 20-ci ildönümünü qeyd etmişik. Simvolik haldır ki, məhz 2014-cü il sentyabrın 20-də «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. «Cənub» qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir. Bu nəhəng transmilli layihənin icrasında Azərbaycan öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Məhz Azərbaycanın uzun illər ərzində apardığı enerji siyasəti nəticəsində, qətiyyətli siyasət nəticəsində bu böyük layihə artıq reallaşır. «Şahdəniz-2», TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli maraqlarımızı, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihədə də liderliyi öz üzərinə götürüb və bu missiyanı şərəflə yerinə yetirəcəkdir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, bu gün qüdrətli, müstəqil Azərbaycan dövləti vardır. Müstəqillik bizim üçün ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz 23 ildir ki, müstəqilik və müstəqil siyasət aparırıq. Milli maraqlar, milli dəyərlər üzərində qurulmuş bu müstəqil siyasət bugünkü Azərbaycan reallıqlarını təmin edir. Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir.

Mən bütün azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər bir Azərbaycanlı ailəsinə səadət, xoşbəxtlik, yeni uğurlar arzulayıram.

**Bayramınız mübarək olsun!**

# Dövlət başçısı yeni gətirilmiş «Boeing-787-8» sərnişin təyyarəsinə baxıb

Yanvarın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Beynəlxalq Aeroportunda «Azərbaycan Hava Yolları» (AZAL) Qapalı Səhmdar Cəmiyyətinə məxsus yeni gətirilmiş «Boeing-787-8» Dreamliner sərnişin təyyarəsinə baxıblar.

«AZAL» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına yeni təyyarə barədə məlumat verib.

«Boeing-787-8» Dreamliner ən müasir tipli hava gəmilərindəndir. Son texniki nailiyyətləri özündə birləşdirən layner daha uzaq məsafələrə uçuşlar həyata keçirməyə imkan yaradır. Ən yeni texnologiyaların tətbiq edilməsi nəticəsində isə təyyarədə yüksək mənfəətli istismar, yanacağa qənaət və sərnişinlər üçün rahat şərait var. Bu təyyarə həm texniki, həm də xidmət cəhətdən digər hava gəmilərindən fərqlənir. Onun çəkisi analoji təyyarələrlə müqayisədə daha yüngüldür. Buna baxmayaraq, uçuş məsafəsi və yükqaldırma imkanı digərlərindən çoxdur və 20 faiz az yanacaq sərf edir. Geniş gövdəli bu təyyarə 210 sərnişin tutumuna malikdir. Fasiləsiz 15 saat uçuş yerinə yetirən bu layner birbaşa 15 min 700 kilometr məsafə qət edə bilir. Dreamliner bu göstəricilərə görə hazırkı sərnişin təyyarələri arasında liderdir. Laynerin sərnişin salonunda üç növ oturacaq və onlara uyğun fərqli xidmət sinifləri mövcuddur. Təyyarənin bütün aeronaviqasiya və sərnişin salonunun audio-video sistemləri ən son texnoloji yeniliklər əsasında tərtib olunub. Bu təyyarə ilə ilk mərhələdə Bakıdan Pekinə, Londona və Avropanın digər şəhərlərinə uçuşlar yerinə yetiriləcək. Bu ilin yay mövsümündən isə hava gəmilərinin Nyu-York və yeni açılacaq hava xətlərində istismarı gözlənilir.

Belə hava layneri MDB məkanında və bir sıra Şərq ölkələri arasında ilk dəfə Azərbaycana gətirilib. Son illərdə digər sahələrdə olduğu kimi, mülki aviasiya sahəsində də uğurlu inkişaf mərhələsi yaşanır. Bu inkişaf özünü həm yeni aerovağzal komplekslərinin inşasında, həm də yeni müasir hava gəmilərinin alınmasında daha aydın göstərir. Bu baxımdan «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin aviaparkının ən müasir «Boeing-787-8» Dreamliner sərnişin təyyarələri ilə gücləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. «Azərbaycan Hava Yolları»nın və ümumilikdə, Azərbaycan mülki aviasiyasının nailiyyətləri Prezident İlham Əliyevin bu sahəyə birbaşa göstərdiyi diqqət və qayğının nəticəsidir.



2 Vergi Məcəlləsinə nəzərdə tutulan əlavə və dəyişikliklər sosialyönümlüdür

3 Azərbaycanda «Yaşıl kart» sığorta sistemi tətbiq olunacaq

4 «Sənaye ili» uğurlarla yadda qaldı

5 2015-ci ildə iqtisadi siyasətin əsas istiqamətləri

# Vergi Məcəlləsinə nəzərdə tutulan əlavə və dəyişikliklər sosialyönümlüdür

Ötən həftə Milli Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib. İclasda çıxış edən komitənin sədri Ziyad Səmədzadə bildirib ki, ölkəmizdə təkmil Vergi Məcəlləsi mövcuddur və nəzərdə tutulan vəsaitlərin dövlət büdcəsinə toplanmasına bu qanunvericilik bazası münbit şərait yaradır. Lakin vaxt ötdükcə, digər qanunlar kimi, Vergi Məcəlləsinə də dəyişikliklərin edilməsi zərurəti yaranır.



Komitə sədri iclasın gündəliyinə «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihəsinin daxil edildiyini diqqətə çatdırıb və qeyd edib ki, layihə sosialyönümlülüyü ilə fərqlənir.

Təklif olunan dəyişikliklər barədə ətraflı məlumat verən vergilər nazirinin birinci müavini Natiq Əmirov bildirib ki, dəyişikliklərə əsasən, Vergi Məcəlləsinə yerli bankların və xarici bankların Azərbaycandakı filialları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi nəzərdə tutan maddə əlavə edilir. Digər bir yenilik isə ondan ibarətdir ki, ölkə ərazisində istehsal olunan qida spirtinə, pivə və spirtli içkilərin bütün növlərinə, tütün məmulatlarına, ölkəyə idxal edilən minik avtomobillərinə, istirahət və idman üçün nəzərdə tutulmuş yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulmuş digər üzən vasitələrə tətbiq edilən aksiz dərəcələri dəyişdirilib. Bununla yanaşı, ölkə ərazisinə idxal olunan platin, qızıl, onlardan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz məmulatları aksizli mallar siyahısına aid edilib. Bildirilib ki, Vergi Məcəlləsinin yol vergisinə aid bir sıra maddələrində də dəqiqləşdirmələr aparılacaq.

Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Vergi orqanı əməkdaşlarının peşə hazırlığına xüsusi önəm verilir

Keçən il Vergilər Nazirliyinin struktur vahidlərinin və bölmələrinin ixtisasartırma və ilkin hazırlıq kurslarının tədris-mövzu planlarına dair təklifləri Vergilər Nazirliyi yanında Tədris-metodiki Şurada geniş müzakirə olunmuş, müvafiq tövsiyələr verilmiş və bu əsasda həmin kursların yeni tədris-mövzu planları, eləcə də qısamüddətli təlimlərin mövzuları və keçirilmə müddətləri müəyyən edilmişdir. Tədrisin səmərəliliyinin yüksəldilməsinin təmin olunması üçün fənlərin tədris proqramları vergi orqanlarının tələbatları əsasında yenidən tərtib edilmiş, tədris olunan mövzuların təlim materialları praktiki yönümlü məsələlərə daha çox yer verilməklə təkmilləşdirilmişdir. İxtisasartırma və ilkin hazırlıq kurslarının tədris-mövzu planlarında praktiki mövzulara daha çox yer verilməsi ilə əlaqədar olaraq, test bazası təkmilləşdirilmişdir.

Çağrı Mərkəzi əməkdaşlarının və vergi ödəyicilərinə xidmət mərkəzlərinin təmsilçilərinin bilik və peşə hazırlığı səviyyəsinin ilkin qiymətləndirilməsi aparılmış, nəticələr nəzərə alınmaqla müvafiq treninq proqramları hazırlanmış, əyani və distant təhsilalma formasında kurslar təşkil edilmişdir.

Ötən il vergi orqanı əməkdaşlarının 63%-i təlim proseslərinə cəlb olunmuşdur. Təhsil prosesinin kifayətlilik göstəricisi isə 9,2 adam-gün olmuşdur. Bu göstəricidə distant təhsilalma formasında təşkil edilmiş kursların payı 3,6 adam-gün olmuşdur. Təhsil proseslərinin təşkilində, eləcə də təlim tələbatlarının öyrənilməsində, biliklərin və təlimlərin qiymətləndirilməsində AVİS-in imkanlarından istifadə edilməsi üçün dörd layihə icra olunmuşdur.

Azərbaycanın müxtəlif bölgələrində yerləşən 54 təhsil müəssisəsində təşkil olunmuş metodiki kabinetlərin və vergi-tədris otaqlarının maddi-texniki təminatının və tədris metodiki vasitələrə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə monitorinq keçirilmiş, nəticələr barədə hesabat xarakterli arayış hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

IOTA-ya daxil olan ölkələrin tədris sahəsində təcrübələrinin öyrənilməsi istiqamətində iş aparılmışdır. «Azərbaycan Respublikası Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr» İtaliya təcrübəsindən yararlanmaqla hazırlanmışdır.

Eyni zamanda, AVİS-in «Tədris» altmodulunda sorğuların aparılması və nəticələrin ümumiləşdirilməsi üçün müvafiq imkanların yaradılması üzrə hazırlıq işləri tamamlanmışdır.




İlkin hazırlıq və ixtisasartırma kursları üzrə keçirilən imtahan prosesinin AVİS-ə inteqrasiya edilməsi üçün Vergilər Nazirliyinin əməkdaşları Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə ezam olunmuş, bu prosesin texniki və təhlükəsizlik məsələləri üzrə biliklər əldə edilmiş, imtahanların AVİS-ə inteqrasiya edilməsi ilə bağlı texniki və proqram təminatı üzrə işlər həyata keçirilmişdir.

Çin Xalq Respublikasının vergi sisteminin öyrənilməsi proqramı, dinləyicilərin seçilməsi, istedadların üzə çıxarılması və ixtisasartırma kurslarının təşkili ilə bağlı bir sıra təkliflər verilmişdir. Hazırda həmin təcrübənin praktiki tətbiqi imkanları araşdırılır.




# BEPS layihəsi üzrə hazırlıq iclası

Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS) layihəsi» üzrə keçirilmiş 1-ci texniki hazırlıq iclası inkişaf etməkdə olan ölkələrin BEPS layihəsi ilə bağlı fikirlərini dinləmək və effektiv iştirak etmələrinə kömək etmək məqsədi ilə təşkil olunmuşdur. BEPS layihəsi üzrə cari vəziyyəti, əməkdaşlıq üçün strateji məqsədləri və çərçivəni, bu məsələlərlə bağlı onların fikirlərini müzakirə etmək üçün inkişaf etməkdə olan ölkələrin nümayəndələri, eləcə də ATAF və CIAT kimi regional vergi təşkilatlarının təmsilçiləri iştirak etmişlər.

BEPS layihəsində iştirak Azərbaycan mütəxəssislərinə OECD-nin Vergi Məsələləri üzrə Komitəsinin (CFA) və onun köməkçi qurumlarının indiyədək yalnız təşkilat üzvləri üçün açıq olan iclaslarında, vergi sazişləri, transfert qiymətləri, rəqəmsal iqtisadiyyat və BEPS-in əhatə etdiyi digər mövzular üzrə işçi qruplarının iclaslarında və BEPS üzrə regional məsləhətləşmələrdə iştirak etmək və bütün digər iştirakçılar kimi mövqe bildirmək hüququ verəcəkdir.

İclasda Azərbaycan Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Xarici ölkələrin vergi sisteminin tədqiqi şöbəsinin rəisi Vüsal Şıxəliyev iştirak etmişdir.

# Azərbaycanın hesabatı təsdiq olunub

*Strasburq şəhərində (Fransa) Avropa Şurasının Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) 46-cı plenar iclası keçirilmişdir.*

İclasda Azərbaycan nümayəndə heyəti ilə qiymətləndirmə missiyası arasında intensiv müzakirələr aparılmışdır.

Müzakirələrin nəticəsi olaraq, əvvəlki qiymətləndirmənin aparıldığı 2008-ci il ilə müqayisədə ölkəmizin əldə etdiyi əhəmiyyətli inkişaf və nailiyyətləri təsbit edən hesabat təsdiq olunmuşdur.

İclasda Vergilər Nazirliyinin Vergi auditi Baş İdarəsinin Auditin metodologiyası şöbəsinin rəisi Vüsal Bayramov, Qiymətli Kağızlar üzrə Dövlət komitəsinin sədri Rüfət Aslanlı və digər şəxslər iştirak etmişlər.

# Vergi bankomatları

*Azərbaycan Vergilər Nazirliyinin təmsilçilərinin ötən ilin sonlarında Çin Xalq Respublikasına səfəri zamanı aktual mövzulardan biri də vergi ödəyicilərinə xidmətlərin keyfiyyətinin yüksəldilməsi sahəsində tətbiq olunan innovasiyalar idi.*

Çinin bir sıra qabaqcıl vergi administrasiyalarında tətbiq olunan «Özünəxidmət vergi terminalları» vergi ödəyicilərinin vaxtına qənaət və səmərəliliyin artırılması baxımından xüsusi rol oynamaqdadır. «Vergi bankomatları» deyilən bu qurğular, əsasən, vergi orqanlarının xidmət mərkəzlərində, ticarət və biznes mərkəzlərində, o cümlədən insanların sıx olduğu yerlərdə yerləşdirilir və demək olar ki, xidmət mərkəzlərinin təklif etdiyi bütün xidmətləri təqdim edir. Terminal Çin Xalq Respublikasında istehsal olunub. Yoxlanılan səmərəlilik nəticəsində həmin terminallar beynəlxalq bazarlarda da özünə yol açmağa başlamışdır. «İnspur» markalı terminallar Rumıniya, Macarıstan, Səudiyyə Ərəbistanı və s. kimi ölkələrin vergi orqanlarında uğurla istifadə olunmaqdadır.



Vergi ödəyiciləri vergi bankomatları vasitəsilə müstəqil şəkildə vergi bəyannamələrinin, vergi hesabatlarının təqdim olunması, vergi bəyannamələrinə düzəlişlərin edilməsini, vergilərin, sanksiyaların nağd pulla yanaşı plastik kartlarla (VISA, MasterCard, Maestro) ödənilməsini, vergi qanunvericiliyi və digər məlumatların əldə olunmasını həyata keçirə bilərlər. Ödəniş qəbzlə bərabər, mobil telefona daxil olan qısa mesajla da təsdiq olunur. Terminallar xidmət mərkəzlərində iş yükünü azaltmaqla yanaşı, qeyri-iş saatlarında da vergi ödəyicilərinə xidmət göstərir. Əldə olunmuş təcrübələrə əsasən, terminallar istifadəçilərin məmnunluq səviyyəsinin artırılmasına və könüllü əməletmə səviyyəsinin yüksəlməsinə əlverişli zəmin yaradır.

Vergi bankomatları xüsusi vergi xidmət kartları ilə və ya kartsız istifadə olunur. Kartla istifadəsinə qərar olduqda, həmin kart ödəyicilərə vergi orqanında qeydiyyatdan keçirilərək pulsuz verilir. Kartlar elektron və ya xidmət mərkəzlərində sifariş oluna bilər.

# Könüllülərin dairəsi genişlənir

*2014-cü ilin sonunda - dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN School» könüllülük proqramının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə layihəsi olan «İnnovativ idarəetmə məktəbi»nin açılış mərasimi keçirilmişdir.*

Layihə çərçivəsində təşkil ediləcək müxtəlif təlim, tədbir və həmçinin görüşlərdə könüllülər ölkənin bir sıra görkəmli ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə görüşmək imkanı əldə edəcəklər. Layihənin açılış mərasimində Dövlət Agentliyinin sədri İnam Kərimov və Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov iştirak emişlər. Tədbir çərçivəsində könüllülər onları maraqlandıran suallara cavab tapmaq və natiqlərlə ünsiyyətdə olmaq imkanı əldə etmişlər.

Qeyd edək ki, «ASAN xidmət» mərkəzləri qısa vaxt ərzində xalqın rəğbətini qazanmışdır. Burada hamının problemləri minimum zaman çərçivəsində həll olunur və hər kəs göstərilən xidmətlərdən razı qalır. «ASAN xidmət» insanlara innovativ xidmətləri ilə təkcə Azərbaycanda deyil, eləcə də Avropada diqqət mərkəzindədir. Bu mərkəzlər gənclərə göstərdiyi xüsusi qayğı ilə də fərqlənir, onların asudə vaxtlarını səmərəli keçirməsi, sosiallaşması, təcrübə toplaması üçün könüllülərlə sıx əməkdaşlıq edir. Təsadüfi deyil ki, «ASAN xidmət» mərkəzi «Könüllü fəaliyyət haqqında» Qanunu ilk tətbiq edən dövlət orqanıdır. Burada könüllü gənclər təşkilatlanaraq ASAN Könüllüləri Gənclər Təşkilatını yaradıblar.

«ASAN xidmət» könüllüləri üçün əsas dəyər dövlətçilikdir. Burada gənclər dövlətdən dəstəklərini əsirgəmirlər. Bu mərkəzlərdə 2500 gənc bir milyondan çox vətəndaşa xidmət edir. Hər bir könüllüyə 2 ay vaxt ayrılır. Könüllülük gənclərə özlərini cəmiyyətdə sınamaq və tanıtmaq, bacarıqlarının əldə edilməsi üçün imkan yaradır.

«ASAN xidmət» mərkəzlərində könüllü olaraq işə başlayıb 2 ay müddətində müqavilə öhdəliklərini uğurla yerinə yetirən gənclərin hər birinə agentlik tərəfindən xüsusi diplomlar və müsbət xasiyyətnamə verilir ki, bu da onların növbəti iş həyatına uğurlu bir keçid fürsəti deməkdir.

4 saylı «ASAN xidmət»in əməkdaşı Ülviyyə Qurbanova vaxtilə könüllü olaraq burada işə başladığını, üç ay staj keçdikdən sonra əmrinin verildiyini və bununla özünü çox xoşbəxt hiss etdiyini bildirdi. O, mərkəzdə işləməkdən zövq aldığını, rəhbərliyin işçilərə gözəl münasibət yaratdığını, kollektivçiliyi gücləndirən tədbirlər keçirildiyini qeyd etdi.



**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda «Yaşıl kart» sığorta sistemi tətbiq olunacaq



*«İcbari sığortalar haqqında» Qanuna dəyişikliklər əsasında BMT-nin Avropa İqtisadi Komissiyasına və «Yaşıl kart» sisteminin idarəedici təşkilatı olan Bürolar Şurasına rəsmi müraciət edilməklə Azərbaycanın da bu sistemə qoşulacağı gözlənilir. Nəticədə xarici ölkələrdə qəza törədən Azərbaycanın avtomobil sahiblərinin də mülki məsuliyyəti sığortalanacaq. Sistemin fəaliyyəti üçün Azərbaycanda «Yaşıl kart» bürosu təsis ediləcək. Büronun funksiyalarını İcbari Sığorta Bürosu (İSB) həyata keçirəcək. Mövzu ilə bağlı İSB-nin icraçı direktoru Elxan Quliyevin fikirlərini öyrəndik.*

***- Elxan müəllim, ölkəmizdə hələ o qədər də populyar olmayan «Yaşıl kart» nədir?***

- «Yaşıl kart» sistemi avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin iştirakçıları, yəni üzv ölkələr arasında qarşılıqlı tanınması haqqında sazişdir. Bu sistemə əsasən, «Yaşıl kart» haqqında sazişin iştirakçıları olan dövlətlərin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər dövlətlərin ərazisində etibarlı sayılır.

Başqa sözlə desək, «Yaşıl kart» sistemi avtomobil nəqliyyatı vasitələrinin sahiblərinin mülki məsuliyyəti üzrə beynəlxalq sığorta təminatı sistemi qismində fəaliyyət göstərir. Sistemin əsas məqsədi onun üzvü olan istənilən ölkəyə səfər edən xarici avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin mənsub olduqları ölkələrin milli qanunvericiliyə uyğun qaydada sığortalanması ilə səyahət etdikləri ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzinin hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyinə uyğun qaydada ödənilməsini təmin etməkdir. Bunun üçün sistemə üzv büroların qarşılıqlı zəmanəti əsasında avtonəqliyyat vasitələri ilə xarici ölkələrə səfər edən sürücülərin səfər ərzində mülki məsuliyyətini sığortalayan vahid təminat sistemi - «Yaşıl kart» təşkil edilir. Nəticə etibarilə avtomobil nəqliyyatı vasitələri ilə sistemin əhatə etdiyi xarici ölkələrə səfər edən sürücülərin öz ölkələrindəki sığortaçılardan «yaşıl kart» əldə etməsi onların bütün səfər boyunca mülki məsuliyyətinin tam sığortalanmasını nəzərdə tutur və onları səfər etdikləri hər bir xarici ölkənin sərhədində yeni mülki məsuliyyət sığortası almaq tələbindən azad edir.

***- Bu sistemə qoşulmaq Azərbaycan üçün nə dərəcədə əhəmiyyətlidir?***

- Milli sığorta bazarının beynəlxalq standartlar səviyyəsində inkişafı və dünya sığorta bazarına inteqrasiyası nöqteyi-nəzərindən, Azərbaycanın avtomobil sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə beynəlxalq sığorta sisteminə qoşulması xüsusi əhəmiyyət kəsb edir. Bu sistemə qoşulmaq beynəlxalq inteqrasiyanın qaçılmaz olduğu müasir dövrümüzdə aktualdır. Azərbaycanın bu sistemə qoşulması üzv ölkələrlə qarşılıqlı əlaqələr baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə inkişaf etmiş ölkələrlə əməkdaşlıq Azərbaycanın milli sığorta bazarının çoxşaxəli inkişafının təmin olunması üçün böyük üstünlüklər verə bilər.

***- Bu sistem nə vaxtdan yaranıb?***

- «Yaşıl kart» 1953-cü ildən tətbiq olunmağa başlamışdır. Hazırda ona Avropa, Asiya və Afrikadan 47 ölkə daxildir. Qeyd etmək lazımdır ki, Azərbaycana qonşu olan ölkələrdən Rusiya, Türkiyə və İran bu təşkilatın üzvüdürlər. Azərbaycan Respublikasının «İcbari sığortalar haqqında» Qanununda edilmiş 28 noyabr 2014-cü il tarixli dəyişikliklərlə ölkəmizin «Yaşıl kart» sisteminə qoşulması ilə bağlı yeni müddəalar əlavə edilmişdir. Bu dəyişikliklərə əsasən, 2016-cı il yanvarın 1-dən «Yaşıl kart» sisteminin Azərbaycanda da tətbiqi nəzərdə tutulur.

***- «Yaşıl kart» sisteminə qoşulan ölkələrin hansı öhdəlikləri vardır?***

- Üzv ölkələrin «Yaşıl kart» büroları bu sistemin idarəedici təşkilatı olan və sistemin inzibatçılığı və fəaliyyəti üçün məsul Bürolar Şurasına daxildir. Üzvlük məsələsinə də Bürolar Şurası tərəfindən baxılır. Ölkələr ilkin olaraq keçici statuslu üzv qismində qəbul edilirlər. Müəyyən müddət ərzində öz öhdəliklərini lazımi qaydada icra edən ölkələr daimi üzvlüyə qəbul olunurlar.

Qeyd edilməlidir ki, üzv ölkələr bu sahədə tələb olunan şərtlərin təmin edilməsinə zəmanət verən bir sıra öhdəliklər götürürlər. Sistemə qoşulmaq hüquqi, texniki, təşkilati, maliyyə və s. müxtəlif aspektləri əhatə edən kompleks tədbirlər planının həyata keçirilməsini nəzərdə tutur.

Azərbaycanın «Yaşıl kart» sığorta sisteminə qoşulması ilə bağlı bunların həyata keçirilməsi zəruridir:

- Büronun nizamnaməsinə müvafiq əlavə və dəyişikliklərin edilməsi (Büronun nizamnaməsinə zəruri olan əlavə və dəyişiklik layihələri hazırlanmışdır. Hazırda bu dəyişikliklər dövlət qeydiyyatına alınma mərhələsindədir);
- «Yaşıl kart» sisteminə keçici statuslu üzv qismində qəbul edilməklə bağlı tələb olunan qaydada Bürolar Şurasına maliyyə təminatının təqdim olunması üzrə hazırlıq işlərinin yerinə yetirilməsi;
- yol-nəqliyyat hadisələri zamanı mülki məsuliyyətin icbari sığortası məqsədləri baxımından əmlaka dəyən zərərin qiymətləndirilməsi praktikasının yaradılması ilə bağlı zəruri işlərin görülməsi;
- «Yaşıl kart» blank formasının təsdiq edilməsi, mərkəzləşdirilmiş qaydada çap olunması və paylanması ilə bağlı işlərin yerinə yetirilməsi;
- «Yaşıl kart» sistemində fəaliyyət məqsədləri üçün ayrıca informasiya idarəetmə sisteminin işlənib hazırlanması üzrə zəruri işlərin görülməsi;
- «Yaşıl kart» sistemində fəaliyyətlə bağlı müxtəlif zəruri normativ aktların, təlimatların, digər sənədlərin hazırlanması, qəbul edilməsi və s.

***- Bu öhdəliklərlə bağlı İcbari Sığorta Bürosu hansı tədbirlər görmüşdür?***

- Bürolar Şurasının yeni üzvlərin qəbul edilməsinə dair tələblərinə əsasən, maliyyə təminatının təqdim olunması üçün Avropanın müvafiq reytinqli bankının maliyyə təminatının əldə olunması üçün tərəfdaş bankın müəyyən olunması, müvafiq reytinqli təkrar sığorta şirkəti ilə təkrar sığorta müqaviləsinin bağlanması üçün bu istiqamətdə müvafiq banklar və təkrar sığorta şirkətləri ilə ilkin danışıqlar aparılmışdır. Bundan əlavə, «Yaşıl kart» sistemində fəaliyyətlə bağlı müxtəlif zəruri normativ aktların, təlimatların və digər sənədlərin hazırlanmasına başlanılmışdır. Sistem çərçivəsində tətbiq ediləcək vahid tariflərin, sığorta şirkətlərinin fəaliyyət göstərməsi üçün İcbari Sığorta Bürosuna ödəyəcəkləri iştirak və təminat haqlarının məbləğlərinin müəyyən edilməsi üçün iqtisadi araşdırmalar aparılmış, blank formasının təsdiq edilməsi ilə bağlı, o cümlədən bu sahədə sığorta bazarının proqnozlaşdırılması üçün zəruri olan göstəricilərin işlənib hazırlanması istiqamətində bir sıra işlər görülmüşdür.

«Yaşıl kart» sığorta sisteminə üzvlük prosesində Azərbaycan artıq çox mühüm bir mərhələyə qədəm qoymuşdur. 2015-ci ilin yanvar ayında «Yaşıl kart» sisteminin idarəedici təşkilatı olan Bürolar Şurasının müraciətlər üzrə iş komitəsinin iclasında İcbari Sığorta Bürosunun sistemə qoşulması ilə bağlı «İcbari sığortalar haqqında» Qanuna və Büronun nizamnaməsinə baxılması nəzərdə tutulur.

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Milli pensiya sistemi inkişaf edir

Ölkəmizdə vahid prinsiplər əsasında fəaliyyət göstərən və bütün işləyən əhalini əhatə edən, pensiyaların məbləğinin sistemə ödənilmiş sosial sığorta haqlarına bağlı olduğu, müasir çağırışlara çevik reaksiya verən sığorta-pensiya sistemi formalaşdırılıb. Bunun nəticəsində beynəlxalq təcrübədə pensiya sistemləri qarşısında qoyulan mühüm vəzifələrin həllinə nail olunub.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev Dünya Bankının ölkəmizdə səfərdə olmuş missiyası ilə görüşdə bildirmişdir ki, respublikadakı iqtisadi inkişafa uyğun olaraq orta aylıq əməkhaqqının artımı, yeni iş yerlərinin açılması və qeydiyyatın gücləndirilməsi hesabına son 10 il ərzində DSMF-nin büdcəsinə daxil olmuş sosial sığorta haqlarının məbləği 8 dəfə artaraq 1 milyard 780 milyon manatı ötmüşdür. Bu artımlar, eləcə də pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ayrılan əlavə dövlət dəstəyi hesabına pensiya xərclərinin ölkənin ÜDM-ə olan nisbəti əhəmiyyətli şəkildə yüksəlmiş, 2003-cü ildə 3,9% təşkil etdiyi halda, 2014-cü ildə 5%-ə çatmışdır.

DSMF sədrinin sözlərinə görə, ölkəmizdə qurulmuş müasir əsaslı sığorta-pensiya sistemi vasitəsilə bir tərəfdən əmək fəaliyyəti göstərən 2 milyon 900 min nəfərdən çox şəxsin fərdi uçot əsasında bilavasitə öz gələcək pensiya təminatının iştirakçısına çevrilməsi, digər tərəfdən isə sığorta-pensiya sistemindəki bir sıra əlavə hüquq və imtiyazların demoqrafik göstəricilərə uyğunlaşdırılması, pensiya hüququ üzrə yaş və staja olan tələbin tənzimlənməsinə dair vaxtında qəbul edilmiş düzgün preventiv qərarlar sistemin maliyyə dayanıqlılığının və islahatların davamı üçün əlverişli şəraiti təmin etmişdir: «Ölkədə yoxsulluq probleminin aradan qaldırılmasının mühüm vasitələrindən biri kimi pensiyaların davamlı artırılmasına dair ölkə başçısının qəbul etdiyi ardıcıl qərarların nəticəsində pensiyaların orta aylıq məbləği hazırda pensiyaçılar üçün yoxsulluq həddini 1,7 dəfə üstələyir, halbuki 2003-cü ildə bu göstərici yoxsulluq həddindən 2 dəfə aşağı məbləğlə ifadə olunurdu. 2003-2014-cü illər ərzində əmək pensiyalarının orta aylıq məbləği 9,4 dəfə artaraq 18,4 manatdan 173 manata, yaşa görə pensiyaçılar üzrə əvəzetmə əmsalı 29,3 faizdən 43,4 faizə çatdırılmışdır. Bu artım dinamikası MDB-nin pensiyaların məbləği nisbətən yüksək olan ilk 4 dövləti arasında ən yuxarı artımdır».

Bildirilmişdir ki, bütün bunlarla yanaşı, ölkədə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq məqsədilə milli pensiya sisteminin inkişafında beynəlxalq tendensiyaların nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruridir. Çünki beynəlxalq təcrübə bir daha təsdiq edir ki, pensiya sistemlərinin səmərəliliyi bu sistemlərin hazırkı cəlbediciliyi və sosial imtiyazlar təqdim etməsi ilə deyil, uzunmüddətli perspektiv üçün maliyyə dayanıqlığına malik olmaları ilə ölçülür.

Görüş zamanı qeyd olunub ki, ölkəmizdə pensiya islahatlarının yeni mərhələsinin prioritet hədəfləri ölkə başçısının 4 noyabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası»nda müəyyən olunub. DSMF sədrinin sözlərinə görə, sənəd ölkəmizdə pensiya təminatı sisteminin formalaşmasında beynəlxalq inkişaf tendensiyalarının nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməklə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olunması məqsədi daşıyır. Qeyd edilmişdir ki, Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrası təyin olunan pensiya məbləği ilə ödənilən sığorta haqqının məbləğinin uyğunluq təşkil etməsinə, pensiya təminatı sistemində yığım potensialının və sosial ədalətin güclənməsinə imkan verəcəkdir. Bununla yanaşı, pensiya təminatı sistemi ilə bağlı qanunvericilikdə sosial sığortaya dair prinsiplər daha da təkmilləşdiriləcək, sistemin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığına nail olunacaqdır.

**AYTƏN**




*2003-2014-cü illər ərzində əmək pensiyalarının orta aylıq məbləği 9,4 dəfə artaraq 18,4 manatdan 173 manata, yaşa görə pensiyaçılar üzrə əvəzetmə əmsalı 29,3%-dən 43,4%-ə çatdırılmışdır*



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Beynəlxalq vergi rəqabəti və onun mahiyyəti

Son dövrlərdə dünyada baş verən inteqrasiya proseslərinin güclənməsi ilə əlaqədar vergitutma sahəsində rəqabətin aparılmasında dövlətlər tərəfindən beynəlxalq hüquq normalarına uyğun olmayan metodlardan istifadə olunması beynəlxalq təşkilatlarda narahatlığın yaranmasına səbəb olur. Ölkələr milli vergi qanunvericiliyinin tələblərini bir qədər «yumşaltmaqla» xarici kapitalın cəlb olunması üçün əlverişli mühit yaratmağa çalışırlar. Belə olan halda öz gəlirlərini itirmək istəməyən dövlətlər ölkə kapitalının xaricə axınını və əhalinin xaricə miqrasiyasının qarşısını almaq məqsədilə bir sıra tədbirlər görməyə məcbur olurlar.

İqtisadi ədəbiyyatda rəqabət dedikdə, çoxtərəfli bir iqtisadi anlayış nəzərdə tutulur. Rəqabət bir tərəfdən cəmiyyətdə əhalinin rifah halını yüksəldir, digər tərəfdən isə elə bir oyuna gətirib çıxarır ki, bu oyunda biri udur, digəri uduzur. Məşhur iqtisadçı A.Smit demişdir ki, rəqabət elə bir güc deməkdir ki, iqtisadi subyektləri öz maraqlarının təmin olunmasına yönəltməklə yanaşı, onları cəmiyyətin iqtisadi vəziyyətinin yaxşılaşdırmasında iştirak etməyə məcbur edir.

Ümumiyyətlə, ədəbiyyatda rəqabət aparmağın beş əsas şərti qeyd olunur:

- rəqabət proseslərində iştirak edən şəxslər sövdələşmiş şəkildə deyil, müstəqil hərəkət etməlidirlər;
- rəqabətdə iştirak edənlərin sayı kifayət qədər olmalıdır ki, haqsız rəqabətin və inhisarçılığın qarşısı alınmış olsun;
- iqtisadi subyektlər bazar iqtisadiyyatının imkanları barədə kifayət qədər məlumatlı olmalıdırlar;
- bu məlumatlardan istifadə edilməklə və heç bir sosial məhdudiyyətlər qoyulmadan iqtisadi subyektlərin azad hərəkəti təmin olunmalıdır;
- resursların yönəldilməsi istiqamətinin və həcminin mülkiyyətçinin istəyinə uyğun müəyyən edilməsi üçün kifayət qədər vaxt imkanı olmalıdır.

İqtisadi sahədə rəqabətin aparılmasına dair yuxarıda göstərilən şərtlər vergitutma sahəsində baş verən rəqabətə də şamil edilir. Bəzi iqtisadçı alimlərin fikrincə, vergitutma sahəsində rəqabət dedikdə, biri-birindən asılılığı olmayan dövlətlər tərəfindən ümumi razılaşma olmadan vergilərin tətbiqinin hər hansı formada müəyyənləşdirilməsi başa düşülür. Bununla yanaşı, vergi sahəsində baş verən rəqabətin səciyyəvi cəhətləri də vardır. Bunlara aiddir:

- vergi rəqabəti digər dövlətlərdən asılı olmadan dövlətin vergi siyasəti ilə əlaqəli olmaqla onun vergi ödəyicilərinə təsir edir;
- vergi rəqabəti ayrı-ayrı ölkələrdə tətbiq olunan vergitutmanın elementləri arasında elə bir uyğunsuzluqdur ki, onun vasitəsi ilə vergi sistemi vergi ödəyicilərinin tələblərinə cavab verir və bununla da vergitutma daha cəlbedici olur;
- rəqabət subyektləri rəqabətin obyekti uğrunda mübarizə aparan şəxslərdən və onların qruplarından ibarətdir;
- vergi rəqabətinin əsas məqsədi milli vergi qanunvericiliyinin xüsusiyyətlərindən istifadə olunmaqla maksimum miqdarda vergi resurslarının cəlb edilməsindən ibarətdir.

Yuxarıda qeyd olunanlar əsasında belə nəticəyə gəlmək olar ki, vergi sisteminin elementləri arasında xarici vergi resurslarının cəlb olunmasını nəzərdə tutmaqa təbii fərqlər də ola bilər ki, bunlar vergi rəqabətinə aid edilmir. Eyni zamanda, ölkələrin vergi qanunvericilikləri arasında xeyli miqdarda elə fərqlər vardır ki, onlar heç də maliyyə resurslarının axınının istiqamətinin dəyişdirilməsini nəzərdə tutmur və ya ona cüzi təsir göstərə bilər.

Beləliklə, deyə bilərik ki, mahiyyət etibarilə vergi rəqabəti elə bir vergi rejimi ilə bağlıdır ki, onun tətbiqi nəticəsində ümumi daxili məhsulun bir hissəsi ölkənin ərazisindən çıxarılaraq digər ölkənin vergi resurslarını artırmış olur. Buradan da dövlət hakimiyyəti orqanları tərəfindən vergitutma obyektlərindən istifadə olunmaqla vergi resurslarının milli vergi qanunvericiliyinin əhatə dairəsinə salınması uğrunda aparılan «mübarizəni» vergi rəqabəti adlandlrmaq olar.

İqtisadi ədəbiyyatda vergi rəqabətinin mahiyyətinə üç mövqedən baxılır:

1. Vergi ödəyicilərinin fəaliyyətinə dövlət nəzarətinin dərəcəsi baxımından rəqabət. Burada əsas məsələ qlobal ödəyicilərin ölkə rezidentinə çevrilməsi üçün vergi dərəcələrinin, vergilərin hesablanıb ödənilməsinin, vergi bəyannamələrinin verilməsinin və s. vergi qaydalarının onlara daha əlverişli olması üçün milli vergi qanunvericiliyində dəyişikliklərin edilməsidir.

2. Biznesin açılması prosedurunun müəyyən olunması sahəsində rəqabət. Bu yanaşma beynəlxalq vergi rəqabətinə qoşulmuş ölkələrin vergi sistemləri arasında ciddi fərqlərin olması nəticəsində qlobal təsərrüfat subyektləri tərəfindən fəaliyyət dövründə bir növ test olunmuş və biznes fəaliyyəti üçün daha əlverişli olan vergi sisteminin seçilməsini nəzərdə tutur.

3. Vergi rəqabəti lider dövlətlərin səviyyəsinə çatmaq üçün ölkələrin yarışmasını stimullaşdıran bir mexanizmdir. Bu mövqedən yanaşma milli vergi sisteminin daha cəlbedici olması üçün vergi dərəcələrinin səviyyəsinin, vergi güzəştlərinin, vergitutma bazasının müəyyən olunması qaydasının, vergi yoxlamalarının keçirilməsi mexanizminin təkmilləşdirilməsində davamlı rəqabətin aparılmasını nəzərdə tutur.

# Azərbaycanda aqroparklar yaradılacaq

*Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Nil Makkeyn bildirib ki, Azərbaycanda aqroparkların yaradılması bankın yeni əməkdaşlıq strategiyasında başlıca yerlərdən birini tutur.*

Artıq yaxın vaxtlarda Azərbaycan hökuməti ilə maliyyələşməyə dair sənədin imzalanması nəzərdə tutulur. Sazişə əsasən, ölkədə aqroparkların, logistik bazaların, həmçinin «yaşıl market»lərin yaradılması reallaşacaq. Kənd təsərrüfatı naziri Heydər Əsədovun sözlərinə görə, AYİB-lə əməkdaşlıq çərçivəsində nəzərdə tutulan layihələrin həyata keçirilməsi kənd təsərrüfatı məhsullarının emalının yaxşılaşmasına, yeni aqroemal müəssisələrinin yaradılmasına, fermerlərin daxili və xarici bazara çıxışının daha da yaxşılaşdırılmasına şərait yaradacaq.

Hazırda «Yaşıl market» və logistika mərkəzləri ilə bağlı Avropanın təcrübəsi öyrənilir. Qeyd edək ki, İspaniyada bu təcrübə geniş yayılıb. Əhalisi 300 min nəfərdən çox olan şəhərlərdə logistika mərkəzləri fəaliyyət göstərir. Fermerlər öz məhsullarını münasib qiymətə bura təhvil verirlər. Mərkəzdə məhsul sortlaşdırılır, markalaşdırılır, yuyulub təmizlənir və qablaşdırılır. Hətta məhsul keyfiyyətinə görə bir neçə növə bölünür, mərkəzdə fitosanitar, baytarlıq və gigiyenik nəzarətdən keçirildikdən sonra pərakəndə satış nöqtələrinə paylanır. Burada logistika mərkəzi gördüyü iş və xidmətlərin müqabilində məhsulun üzərinə müəyyən faiz əlavə edir.



Aqroparklar kənd təsərrüfatının maşın-texnika və minerallarla təminatının yaxşılaşdırılması məqsədilə ayrıca yaradılmış aqrar zona hesab edilir. Bölgələrdə yaradılması nəzərdə tutulan aqrar parklar kənd mülkiyyətçilərinin və fermerlərin problemlərinin həll olunması, təsərrüfatların maddi-texniki bazasının möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Burada kənd təsərrüfatına aid maşın və texnikalar, onların ehtiyat hissələri hazırlanacaq, gübrə və kimyəvi-mineral maddələr istehsal olunacaq. Layihəyə əsasən, xarici investorları cəlb etməklə respublikada kənd təsərrüfatı təyinatlı texnikanın istehsalının təşkili də planlaşdırılır. Bu məqsədlə Azərbaycan İnvestisiya Şirkəti xarici sərmayəçilərlə birgə yeni layihələr hazırlayıb həyata keçirəcək. Bununla da xarici ölkələrdən Azərbaycana gətirilən maşınqayırma məhsullarının idxalı azaldılmış olacaq.

N.Makkeyn onu da bildirib ki, AYİB Azərbaycanla qarşıdakı dövrdə özəl sektora dəstək, kiçik və orta sahibkarlığa maliyyə yardımı mexanizminin təkmilləşdirilməsi, bankların və kredit təşkilatlarının maliyyələşmədə aktiv iştirakının artırılması məqsədilə maliyyə resursları potensialının gücləndirilməsi və digər sahələrdə əməkdaşlığı genişləndirəcək.

AYİB indiyədək Azərbaycanda özəl sektor da daxil olmaqla su təchizatı, enerji, nəqliyyat, bank, biznes və digər sahələrdə 146 layihənin maliyyələşdirilməsinə 2,5 milyard dollar kredit ayrılıb. 1,3 milyard dollar dəyərində kredit dövlət zəmanəti ilə 10 layihəyə ayrılıb, 1,2 milyard dollar dəyərində 136 layihə isə özəl sektorun inkişafına yönəldilib. Ötən il Azərbaycanda həyata keçirilən 17 layihənin maliyyələşdirilməsinə AYİB tərəfindən 163 milyon avro vəsait ayrılıb.

AYİB 2015-2018-ci illəri əhatə edən əməkdaşlıq strategiyası çərçivəsində özəl sektoru dəstəkləməkdə daha fəal olacaq. Azərbaycanda rəqabət qabiliyyətli bazarların inkişaf etdirilməsi məqsədilə dövlət və özəl sektorun iştirakı ilə birgə layihənin həyata keçirilməsi planlaşdırılır. Layihə əsas etibarilə özəl müəssisələrin inkişaf etdirilməsinə yardım mexanizminin təkmilləşdirilməsi, xüsusilə də kiçik və orta sahibkarlıq sektoruna diqqətin gücləndirilməsi üçün maliyyə mənbələri imkanlarının artırılmasını nəzərdə tutur. Layihə çərçivəsində bank tərəfindən birbaşa özəl sektora investisiyaların qoyulmasının maliyyələşdirilməsi, kapitalın beynəlxalq maliyyə bazarlarına istiqamətləndirilməsi, şirkətlərə və hökumətlərə məsləhət xidmətlərinin göstərilməsini həyata keçirəcək.

**E.CƏFƏRLİ**

# «Sənaye ili» uğurlarla yadda qaldı

İqtisadiyyat və sənaye nazirinin müavini Niyazi Səfərovun sözlərinə görə, müəyyən olunmuş tədbirlər planının uğurlu icrası sayəsində 2014-cü ildə ölkədə 20-dən çox orta və iri sənaye müəssisəsi açılıb, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilib. Bakı və Sumqayıt şəhərlərində texnopark layihələrinin miqyası böyüyüb. Gəncə və Mingəçevirdə müasir sənaye kompleksinin yaradılması, sənaye mərkəzlərində rəqabətqabiliyyətli, ixracyönümlü məhsulların istehsalının təşkili məqsədilə müvafiq işlər həyata keçirilməkdədir. Sumqayıt Kimya Sənaye və Yüksək Texnologiyalar Parkında, eləcə də Balaxanı Texnologiyalar Parkında yeni müəssisələrin yaradılması işləri davam etdirilir.

İSN rəsmisi əlavə edib ki, 2014-cü ildə Azərbaycanın sənaye sahəsinə investisiya qoyuluşları 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 6%-dən çox artaraq 7,5 milyard manata çatıb. İl ərzində ölkə iqtisadiyyatına bütün investisiya qoyuluşlarının təxminən 45%-i sənaye sahəsinə yönəldilib. Bu sahədə istehsal 5%-dən çox artıb. Ümumilkdə son 10 ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, sənaye məhsulları istehsalının həcmi 2, 7 dəfə artıb. Sənaye sektorunda investisiya qoyuluşlarının artımı son 10 ildə 2 dəfədən çox olub. 2003-cü illə müqayisədə sərmayələr 2,2 dəfə artaraq 7, 5 milyard manatı ötüb. Təkcə 2003-2013-cü illərdə «Regionların inkişafı» Dövlət Proqramı çərçivəsində bölgələrdə 500-ə qədər sənaye müəssisəsi açılıb. Hazırda ölkə iqtisadiyyatına yatırılmış investisiyaların 40%-i sənaye sektorunun payına düşür. Ötən il sənayedə 33,7 milyard manatlıq məhsul istehsal olunub. Qeyri-neft sənayesi 6% artıb, ÜDM-in 44,3%-i sənayedə istehsal olunub. Sənaye məhsulunun 80,7%-i özəl bölmənin payına düşür. Ümumiyyətlə, sənaye sektoruna qoyulmuş investisiyaların 44,2%-i xarici investisiyalardan, 55,8%-i isə daxili investisiyalardan ibarətdir.

İSN rəsmisinin bildirdiyinə görə, ötən ildən başlanmış 30-dan çox sənaye müəssisəsi qurulmaqda və genişləndirilməkdədir, onların bu il istifadəyə veriləcəyi planlaşdırılıb. Hökumət regionlarda bu sahəni dirçəltmək üçün sənaye texnoparkları ilə yanaşı, sənaye məhəllələri yaratmağa start verib. Sənaye məhəllələrinin yaradılması məqsədilə müasir təcrübə öyrənilib və ilk layihənin Neftçala rayonunda həyata keçirilməsinə başlanılıb. Sənaye məhəllələrinin Gəncəətrafı rayonlarda, eləcə də Şirvan və Siyəzən rayonlarında yaradılması planlaşdırılır. Növbəti mərhələdə bu layihənin digər regionlarda da tətbiqi nəzərdə tutulur.

*2014-cü il Azərbaycan üçün həm də «Sənaye ili» oldu. Mövcud potensialdan daha səmərəli istifadə olunması məqsədilə il ərzində paytaxt və regionlarda müxtəlif sənaye modelləri tətbiq edildi*



2014-cü ildə sənaye sektoruna xariçi investorları cəlb etmək məqsədilə müxtəlif stimullaşdırıcı addımlar atılıb, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması sayəsində xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının bu sahəyə marağı artıb. Dünya Bankı Balaxanı texnoparkı layihəsində donor kimi iştirakla bağlı yekun qərar qəbul edib və bu sahəyə 47 milyon dollar investisiya qoymaq üçün Azərbaycan hökuməti ilə saziş imzalayıb. Saziş çərçivəsində növbəti 20 il müddətinə Balaxanı poliqonunun beynəlxalq standartlara müvafiq qaydada tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi üzrə milli strategiya sənədinin qısa, orta və uzunmüddətli tədbirlər planının hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) da sənaye sektoruna, xüsusilə də yüksək texnologiyalar və sənaye parklarına investisiyalar yatırmaq niyyətini açıqlayıb. AYİB Azərbaycanla 2015-ci ildə yeni əməkdaşlıq strategiyasının hazırlanacağını da diqqətə çatdırıb. Bankın yeni strategiya çərçivəsində əsas sahə kimi sənaye layihələrinə daha çox maliyyə ayıracağı istisna olunmur.

Digər beynəlxalq təşkilatlar və xarici investorlar da Azərbaycanda həyata keçirilən sənaye texnoparkları layihəsinə böyük maraq göstərirlər. Artıq Cənubi Koreya, Sinqapur, Yaponiya, Türkiyə və digər ölkələrin investorları Azərbaycanda bu tipli layihələrin maliyyələşdirilməsində yaxından iştirak etmək niyyətlərini bildiriblər. Fransanın «Thales Group» və «Air Liquied» şirkətlərinin nümayəndələri ötən il Sumqayıt Kimya Sənaye Parkında olublar və tərəflər arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. Fransızlar tikinti, energetika, avtomobil istehsalı sahələrinə kapital yatırmaq niyyətindədirlər. Almaniyanın «Vinnolit GmbH & Co.Kg» şirkətinin əməkdaşları da Sumqayıt texnoparkında olublar, əməkdaşlıq imkanları müzakirə edilib. Azərbaycan hökuməti ilə Yaponiyanın «Marubeni Corporation» şirkəti arasında müqavilə imzalanıb. Birgə əməkdaşlığa əsasən, Gəncə və Daşkəsəndə dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edəcək müasir sənaye parkı yaradılacaq.

İSN-dən bildirildiyinə görə, yaxın on ildə Azərbaycanın ümumi ixracında sənaye məhsullarının payının əhəmiyyətli dərəcədə artması ilə ölkə üzrə ÜDM-in 80%-ni təmin edən yüksək texnologiyalı istehsal yaradılması hədəf seçilib. Bu məqsədlə bölgələrdə sənaye məhəllələrinin, biznes inkubatorlarının yaradılması və digər prioritet layihələr həyata keçiriləcək. Ölkə Prezidenti tərəfindən bu günlərdə «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı» təsdiq edilib. Proqram sənayenin inkişafı ilə bağlı çox mühüm və fundamental məsələləri özündə əks etdirir. Sənədin əsas prioritetləri sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, regionların sənaye potensialının gücləndirilməsi, sənaye və texnologiyalar parklarının və sənaye məhəllələrinin yaradılması, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması kimi istiqamətləri əhatə edir. Dövlət Proqramına uyğun olaraq qarşıdakı 5 ildə yeni sənaye sahələrinin və sənaye parklarının yaradılması, ölkəyə qabaqcıl texnologiyaların gətirilməsi ilə bağlı layihələr həyata keçiriləcək. Sənayenin inkişafı üzrə əsas ssenarilər kimya, texnologiya, mis, qızıl, dəmir və filiz kombinatları, alüminium, polad, maşınqayırma, yeyinti və yüngül sənaye obyektlərinin yaradılmasını əhatə edir.

Bu siyasətin yürüdülməsi yeni iş yerlərinin yaradılması və son nəticədə məşğul əhalinin sayının artımı fonunda insanların sosial rifahının yaxşılaşmasına zəmin yaradacaq. Proqnozlara görə, yaxın illərdə sənaye sahəsindən daxil olan vergilərin iki dəfə artacağı gözlənilir. Qarşıdakı illərdə yeni sənaye müəssisələrinin istifadəyə verilməsi qeyri-neft sənayesindən əldə olunan vergilərin artacağını şərtləndirir.

**Elbrus CƏFƏRLİ**

# Bank sisteminin inkişafı

***Azərbaycan maliyyə sisteminin mühüm elementi olan banklar aktivlərinin və kapitalının həcminə, regional əhatəsinə görə digər maliyyə vasitəçilərini dəfələrlə üstələyir***

Bu gün respublikada ikipilləli bank sistemi fəaliyyət göstərir. Birinci pillədə Azərbaycan Respublikasının Mərkəzi Bankı, ikinci pillədə isə kommersiya bankları və bank olmayan kredit təşkilatlarıdır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar iqtisadiyyatın bütün sahələrində olduğu kimi, bank sistemində də çoxsaylı dəyişikliklər baş verib. İslahatların ilkin mərhələsində dövlət banklarının yenidən qurulması və sağlamlaşdırılması tədbirləri həyata keçirildi, özəl bank sisteminin əsası qoyuldu. Kapitalla bağlı tələblər, sistemə daxil olmaq üçün şərtlər və bank fəaliyyətini tənzimləmək üçün qaydalar müəyyənləşdirildi. Bu proseslərin nəticəsində bank sistemi genişləndi və özəl bankların sayı artdı. Bununla da bank sisteminin inkişafında yeni, mühüm mərhələ həyata keçirilməyə başlandı. Bank fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, bank sisteminin etibarlılığının və sağlamlığının qorunması, bank xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, bu sahədə şəffaflığın artırılması və bazar intizamının möhkəmləndirilməsi, səmərəli bank nəzarətinin təşkili üçün qarşıya qoyulan vəzifələrin uğurlu həlli sektorda dərin kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb oldu. İslahatların ümumi nəticəsi isə həm maliyyə sabitliyinə, həm risk menecmenti təcrübəsinə, həm də beynəlxalq standartlara tam uyğun bank sisteminin formalaşmasına gətirib çıxardı.

«Bank bazarının bugünkü səviyyəsini iqtisadi inkişafa və səviyyəyə adekvat hesab etmək olarmı və ya bank sektoru istisadiyyata dəstək verirmi?» - sualımıza cavab olaraq iqtisadçı ekspert, bank üzrə mütəxəssis Yusif Abdullayev bildirdi ki, iqtisadiyyatı bir orqanizm kimi təsəvvür etsək, bank sistemi bu orqanizmdə qan damarları rolunu oynayır: «Bank sistemi iqtisadi sistemin tərkib hissəsi kimi ondan çox asılıdır. Amma bank sisteminin də iqtisadiyyatın inkişafına dəstək vermək funksiyası var. Bankların inkişaf tendensiyasına diqqət yetirsək, görərik ki, iqtisadiyyat inkişaf etdikcə bank sektoru da böyüyür.

Bank sektoru bir xidmət sektorudur. Bazarın tələbinə uyğun bazara reaksiya vermək qabiliyyətinə malikdir. Bu gün bazarın bu xidmətlərə tələbi nə qədərdirsə, sektor da o qədər təklif edəcək. Bazarın tələbi böyübükcə banklar da adekvat olaraq daha çox xidmətlər təklif edir.

Bank bazarının bugünkü iştirakçıları, əsasən, pərakəndə bankçılıq və korporativ bankçılıqdan ibarət iki istiqamətdə xidmət təklif edirlər. Pərakəndə bankçılıq xidmətindən istifadə edən ev təsərrüfatları alıcılıq qabiliyyətini artırmaqla iqtisadiyyata indi müəyyən dəstək verirsə, gələcəkdə qazanacağı pulu istehlak əvəzinə banka ödəməklə öz alıcılıq qabiliyyətini çərçivəyə salır. Beləliklə, pərakəndə bankçılığın iqtisadi inkişafa dəstəyini yüksək qiymətləndirmək olmaz. Həmçinin bu bazar artıq doymuş hesab oluna bilər. Bu gün Mərkəzi Bank başda olmaqa dövlət strukturlarını narahat edən məsələ - əhalinin artıq borclanması problemi məhz bu bazarın nəticəsində baş vermişdir».

Bank sektoru qeyri-nağd əməliyyatları özündə birləşdirir və iqtisadiyyatın yalnız leqal hissəsinə xidmət göstərə bilir. Nağd aparılan əməliyyatlar bank sektorundan kənarda qalır. Y.Abdullayevin fikrincə, bank sektorunun və iqtisadiyyatın inkişafı üçün ən geniş və əhəmiyyətli çəkiyə malik bankçılıq növü olan korporativ bankçılıqla həm bank sektoru, həm də iqtisadiyyat tam leqallaşma nəticəsində yeni impuls ala bilər: «Vergilər Nazirliyinin dəstəyi ilə satış nöqtələrində POS-terminalların quraşdırılması bu qəbildən olan işlərdəndir. Bu gün texnologiyanın inkişafı ilə ödənişlərin internet vasitəsilə aparılmasında artan tentendisiyadan müşahidə olunur ki, qeyri-nağd əməliyyatların artımı üçün zəmin yaradılıb. POS-terminal və ödəniş sistemləri isə pərakəndə əməliyyatlar üzrə pul axınlarını bank sektorunun çərçivəsinə salmağa kömək edir. Ticarətin, idxalın və daha böyük maliyyə əməliyyatlarının banklar vasitəsilə aparılması lazımdır ki, bank sektoru tam potensialını ortaya qoya bilsin».

*Ticarətin, idxalın və daha böyük maliyyə əməliyyatlarının banklar vasitəsilə aparılması lazımdır ki, bank sektoru tam potensialını ortaya qoya bilsin*

Müsahibimizin sözlərinə görə, bu gün banklar geniş çeşidli xidmətlər göstərir. Artıq müştərilərə bank məhsulları internet-bank, mobil-bank, avtomatlaşdırılmış bank köşkləri kimi ən müasir texnoloji vasitələrlə təklif edilir: «İnternet bankçılıq, mobil bankçılıq, investsment bankçılıq, privat bankçılıq sahələrində xidmət təklif edən banklar olsa da, hələlik bu təkliflər üçün bazar yaratmaq mümkün olmayıb. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, pərakəndə və korporativ bankçılıqla yanaşı, yuxarıda adı çəkilən istiqamətlərin də böyük çəkiyə malik olduğunu görürük.

Bank sektoru iqtisadiyyatın, iqtisadiyyat isə bank sektorunun inkişafı ilə ayaqlaşmalıdır. İqtisadiyyatın inkişafı bank sektorunu, bank sektoru isə iqtisadi inkişafı stimullaşdırmalıdır. Pərakəndə bank sektoru doymuş, yeni inkişaf modeli tələb edən bazar kimi xarakterizə olunsa da, korporativ və digər innovativ bankçılıq sahələri hələ də tam potensiallarını ortaya qoymayıblar. Bank sektorunun gələcək inkişafı həmin potensialdan, bu sahəyə mərkəzləşdirilmiş dəstəyin olmasından və əlbəttə, iqtisadi artımdan çox asılıdır».

**Fəxriyyə İKRAMQIZI**

# 2015-ci ildə iqtisadi siyasətin əsas istiqamətləri

Mərkəzi Bank (MB) 2014-cü ildə Azərbaycanın maliyyə-bank və valyuta bazarının vəziyyəti və 2015-ci il üçün nəzərdə tutulan pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanat yayıb. Bəyanatda bildirilir ki, yola saldığımız 2014-cü ildə mürəkkəb qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatında dinamik inkişaf və makroiqtisadi sabitlik davam edib, qeyri-neft sektoru iqtisadi artımın əsas mənbəyi olub, investisiya fəallığı yüksək səviyyədə qalıb. Azərbaycan dünya ölkələri arasında makroiqtisadi sabitlik üzrə ilk onluqdakı yerini qoruyub. Ölkədə həyata keçirilən siyasət inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılması, manatın məzənnəsinin və bank sektorunda maliyyə sabitliyinin qorunması, bankların iqtisadi inkişafda rolunun artırılmasına yönəldilib. İl ərzində dayanıqlı maliyyə sabitliyi təmin olunub, bank sektorunun iqtisadi artımda və investisiya fəallığının dəstəklənməsində rolu artıb, maliyyə xidmətləri və resursların əldə edilməsi imkanları genişlənib.



***Azərbaycan yuxarı orta gəlirli ölkələr qrupunda mövqeyini möhkəmləndirib***

2014-cü ildə iqtisadi artımın davam etməsinin başlıca mənbəyi qeyri-neft sektoru olub. Şaxələnmə prosesləri davam edib, iqtisadi artımın daxili və xarici tələb mənbələri arasında yenidən balanslaşması müşahidə olunub. Ötən ilin 11 ayında real ÜDM 2,2%, o cümlədən qeyri-neft iqtisadiyyatında 6,5% artıb. ÜDM-in 57%-i qeyri-neft sektorunun payına düşüb. «Sənaye ili» çərçivəsində aparılan məqsədyönlü siyasət emal sənayesində istehsalın artımına müsbət təsir edib. Qeyri-neft sektorunda yüksək iqtisadi fəallıq şəraitində ölkədə 100 mindən çox yeni, o cümlədən 82 mindən çox daimi iş yeri açılıb.

2014-cü ildə ölkədə qiymətlərin sabitliyi təmin edilib. Dünya İqtisadi Forumunun son hesabatına görə, Azərbaycan dünyada inflyasiyanın ən aşağı olduğu ölkələrdən biridir. Ötən ilin 11 ayında orta illik inflyasiya 2013-cü ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz bəndi azalaraq 1,5% təşkil edib. Bu, ticarət tərəfdaşı ölkələrindəki orta inflyasiyadan (5,2%) əhəmiyyətli səviyyədə aşağıdır.

2014-cü ildə Mərkəzi Bank əlverişli xarici iqtisadi mövqeyə əsaslanan məzənnə siyasəti həyata keçirərək milli valyutanın - manatın sabitliyini qoruyub. Məzənnə siyasəti makroiqtisadi və maliyyə sabitliyi, habelə qeyri-neft sektorunun rəqabət qabiliyyətinin qorunması hədəfləri nəzərə alınmaqla həyata keçirilib. Məzənnə siyasətinin aparılması mexanizmi dəyişməz saxlanılıb. Bir sıra xarici ticarət tərəfdaşı ölkələrində milli valyutaların əhəmiyyətli devalvasiyaya uğraması şəraitində manatın dollara qarşı məzənnəsi, demək olar ki, dəyişməyib. Daxili inflyasiyanın partnyor ölkələrdəki inflyasiyadan əhəmiyyətli dərəcədə aşağı olması isə real effektiv məzənnəyə azaldıcı təsir edib. Valyutaya tələb, nağd və qeyri-nağd bazarda xarici valyutanın alışı mənbələri və motivləri, təklif mənbələri, bəzi tərəfdaş ölkələrin valyutalarının dəyərsizləşməsi ilə bağlı psixoloji amillər operativ izlənilib. Bu əsasda müvafiq tənzimləmə tədbirləri görülüb, nəticədə valyuta bazarında sabitlik qorunaraq manatın məzənnəsində tərəddüdlər baş verməyib.

***Kart infrastrukturu inkişaf edib, POS-terminalların sayı 81973-ə çatıb***

Ödəniş sistemlərinin sabitliyinin qorunması, bu sahədə yaradılmış müasir infrastrukturun tətbiqi miqyasının genişləndirilməsi və innovasiyaların təşviqi 2014-cü ildə də Mərkəzi Bankın mühüm fəaliyyət istiqamətlərində önəmli yer tutub. Milli Ödəniş Sistemi vasitəsilə 2014-cü ildə həyata keçirilən ödənişlərin həcmi ÜDM-in 2 mislini təşkil edib. «Elektron hökumət» quruculuğu çərçivəsində yaradılmış «Hökumət ödəniş portalı»nın genişləndirilməsi davam etdirilib. Nəticədə kütləvi xidmətlər göstərən 19 təşkilat portala inteqrasiya olunub. Bu təşkilatların göstərdiyi 285-dən çox xidmət növü üzrə ödənişlər həyata keçirilir. Hazırda «ASAN xidmət» mərkəzlərində dövlət orqanlarının göstərdikləri xidmətlər üzrə ödənişlərin portal vasitəsilə qəbulu, həmçinin «ASAN ödəniş» sisteminin infrastruktura inteqrasiyası istiqamətində işlər tamamlanmaq üzrədir.

2014-cü ildə kart infrastrukturunun inkişafı davam edib. Ölkədə emissiya edilmiş ödəniş kartlarının sayı 5,9 mln. ədədə, bankomatların sayı 2586-ya, POS-terminalların sayı isə 81973-ə çatıb. İl ərzində ödəniş kartlarının sayı 5%, bankomatların sayı 6,8%, POS-terminalların sayı isə 2 dəfə artıb.

***2015-ci ildə iqtisadi artım 4,4% proqnozlaşdırılır***

Mərkəzi Bank 2015-ci ildə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına, bank sektorunun maliyyə dərinliyinin artırılmasına, maliyyə-bank infrastrukturunun inkişafına yönəlmiş fəaliyyətini davam etdirəcəyini bəyan edib. Bu il də dövlətin strateji inkişaf proqramlarının həyata keçirilməsi iqtisadi artıma təsir edən mühüm amillərdən biri olacaq. İqtisadiyyatın şaxələnməsində qeyri-neft sektorunda investisiya fəallığı və ixrac potensialının reallaşdırılması mühüm rol oynayacaq. 2015-ci ildə iqtisadi artımın 4,4% təşkil edəcəyi proqnozlaşdırılır. Əsasən qeyri-neft sektoru hesabına təmin olunacaq artım proqnozu 8,2% təşkil edir. İqtisadi artımda daxili tələbin rolu əhəmiyyətli səviyyədə qalacaqdır. Proqnozlara görə, 2015-ci ildə daxili investisiyalar 6,1%, əhalinin pul xərcləri isə real olaraq 5,2% artacaq.

Məzənnə siyasətini həyata keçirərkən MB makroiqtisadi sabitliyin təmin edilməsi, maliyyə sabitliyinin və qeyri-neft iqtisadiyyatının rəqabət qabiliyyətinin qorunması kimi hədəfləri əsas götürəcək. Manatın sabit məzənnəsi təkrəqəmli inflyasiya hədəfinə nail olunmasında, sosial rifahın və investisiya aktivliyinin qorunmasında mühüm rol oynayır. Məzənnə rejimi əsasən dəyişməz saxlanılacaq, dollar-manat məzənnəsinin hədəflənməsi növbəti ildə də məzənnə siyasətinin əməliyyat çərçivəsini təşkil edəcək. İkitərəfli məzənnə ilə yanaşı, manatın nominal və real effektiv məzənnələrinə də monitorinq davam etdiriləcək.

***Kreditlər üzrə faiz dərəcələri azaldılacaq***

Ölkədə kreditlər üzrə faiz dərəcələrinin azaldılması da prioritetlərdəndir. Pul siyasəti alətlərinin kəmiyyət parametrlərini müəyyən edərkən pul siyasətinin iqtisadiyyata ötürücülük qabiliyyəti - transmissiyası xüsusiyyətləri də nəzərə alınacaqdır. Pul siyasəti alətlərinin təkmilləşdirilməsi və onun iqtisadiyyata təsirinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir. Xüsusilə, banklararası pul bazarının fəaliyyətinin gücləndirilməsi diqqətdə saxlanacaq, buradakı faiz dərəcələrinin faiz dəhlizi mexanizminə inteqrasiyası imkanlarına baxılacaq.

Regional bankçılığın inkişafı da diqqətdə saxlanılacaq, kredit institutlarının regional şəbəkəsinin genişləndirilməsi təşviq olunacaqdır. Fiziki filial şəbəkəsi ilə yanaşı, distansion bankçılıq mexanizmlərinin, o cümlədən elektron bankçılıq alətlərinin inkişaf etdirilməsinə əhəmiyyət veriləcək. Regionlarda sosial rifahın yüksəlməsində mikromaliyyənin rolunu nəzərə alaraq bank olmayan kredit təşkilatlarının inkişafına diqqət artırılacaq. İpoteka kreditləşməsi prosesinin sadələşdirilməsi məqsədilə «Elektron ipoteka» sisteminin imkanlarından istifadə ediləcək. Vətəndaşların ipoteka kreditlərinə elektron müraciət imkanı yaradılacaq. Adi ipoteka kreditləşməsinin genişləndirilməsi üçün əlavə bazar mənbələrinin cəlbi, yeni ipoteka məhsullarının yaradılması, ipoteka kreditləri üzrə zəmanət mexanizminin formalaşdırılması istiqamətində tədbirlər görüləcək.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycan manatı MDB və Şərqi Avropa məkanında ən sabit valyutadır

*Bu fikir Belarusun «Delovaya qazeta» saytında yerləşdirilmiş «MDB və Şərqi Avropa ölkələrinin valyuta məzənnələrinin dinamikası (infoqrafika və proqnoz)» adlı məqalədə səslənir.*

Materialda qeyd edilir ki, dekabr ayında Belarus rublu 2013-cü ilin payızından bəri ilk dəfə, IV rübdə və II yarımillikdə MDB və Şərqi Avropa ölkələrinin valyutaları arasında devalvasiya üzrə lider olub. Bütövlükdə 2014-cü ildə ən çox ucuzlaşan Ukrayna qrivnasıdır. Azərbaycan manatı isə bu məkanda ən sabit valyuta olaraq qalır.

Dünya bazarlarında ABŞ dollarının mövqeyinin möhkəmlənməsi davam edir. ABŞ dollarının altı əsas valyuta - avro, yapon iyenası, funt sterlinq, Kanada dolları, İsveç kronu və İsveçrə frankından ibarət valyuta səbətinə nisbətini göstərən USDX indeksinin qiyməti dekabrın axırlarında 90 bənd olub. Bu indeksin tarixi minimumu (70 bənd) 2008-ci ilin martında, onun tarixi maksimumu isə (148 bənd) 1985-ci ilin əvvəlində qeydə alınıb.

Təbii ki, Avropa qitəsinin bütün valyutaları, o cümlədən avro özü də il ərzində bahalaşmaqda olan dollarla müqayisədə zəifləyib.




Məqalədə deyilir ki, 2014-cü il ərzində öz valyutasının ABŞ dollarına nisbətdə devalvasiyasına imkan verməyən yeganə ölkə Azərbaycandır. Nəşrdə bildirilir ki, manatın dollara nisbəti hətta 0,01 faiz artıb.

# Sahibkarlığın inkişafı diqqət mərkəzindədir

*Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri hesabına verilən güzəştli kreditlərdən istifadə nəticəsində ölkədə yeni iş yerlərinin açılması, əhalinin işlə təmin olunması prosesi davam edir*

SKMF-nin məlumatına görə, ötən il sahibkarlığın inkişafına 2013-cü ilə nisbətən daha çox - 295 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 5570-ə yaxın sahibkarlıq subyektinin investisiya layihəsi maliyyələşdirilmişdir. Layihələrin reallaşdırılması 12500-dən çox yeni iş yerinin açılmasına imkan yaratmışdır. 2013-cü illə müqayisədə maliyyələşdirilmiş layihələrin sayı isə 24,6% artmışdır. Güzəştli kreditlərin 77%-i respublikanın regionlarının, 23%-i isə Bakı şəhəri və onun qəsəbələrinin payına düşür. Güzəştli kreditlər müasir heyvandarlıq və istixana kompleksləri, iri fermer təsərrüfatları, logistik mərkəzlər, ixtisaslaşdırılmış «yaşıl market»lər, çörək zavodları, quşçuluq və intensiv bağçılıq təsərrüfatları, yem zavodları, tikinti materiallarının istehsalı müəssisələri, mis emalı, istixana konstruksiyaları və meyvəqurutma avadanlıqlarının istehsalı, meyvə və tərəvəz emalı müəssisələri və iqtisadiyyatın digər prioritet sahələri üzrə layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir. 2014-cü ildə güzəştli kreditlər hesabına maliyyələşdirilmiş yeni texnologiyalara əsaslanan 40-a yaxın istehsal, emal və aqrar sektora xidmət infrastrukturu müəssisəsi istifadəyə verilmişdir. 27 yeni sənaye müəssisəsi yaradılmış, onların maliyyələşdirilməsinə 69,2 milyon manat güzəştli kredit verilmişdir. Ümumilikdə, indiyədək 24921 sahibkara 1 milyard manatdan çox vəsait ayrılmışdır. 2015-ci ildə ətlik və südlük istiqamətli cins iribuynuzlu heyvandarlıq komplekslərinin, logistika mərkəzlərinin, ixtisaslaşdırılmış «yaşıl marketlərin», aqroparkların, iri fermer, intensiv bağçılıq və tingçilik təsərrüfatlarının, müasir istixana komplekslərinin, meyvə-tərəvəz emalı, qarışıq yem istehsalı, çörək istehsalı və digər sənaye müəssisələrinin yaradılması, eləcə də kiçik sahibkarlığın inkişafı dövlətin güzəştli kreditlərinin yönəldiləcəyi əsas istiqamətlər olacaq.

Qeyd edək ki, sahibkarlar müvəkkil kredit təşkilatlarına şəxsən, «Elektron idarəetmə sistemi» vasitəsilə elektron formada müraciət etməklə güzəştli kreditləri əldə edə bilərlər. Sistem sahibkarların elektron müraciətlərinə müvəkkil kredit təşkilatları tərəfindən baxılaraq daha tez münasibət bildirmələrini və rəsmi cavab vermələrini təmin edir, layihənin maliyyələşdirilməsi prosesinə operativ nəzarət imkanlarını artırır. Bununla da sənəd dövriyyəsinin daha sürətli və təhlükəsiz həyata keçirilməsi tə-



min edilir, sahibkarın investisiya tələbatının müəyyənləşdirilməsi, layihələrin maliyyələşdirilməsi prosesinin daha da optimallaşdırılması və onların güzəştli kreditlərə çıxış imkanlarının xeyli asanlaşdırılmasına şərait yaradılır. Sahibkarlar SKMF saytına (www.anfes.gov.az) daxil olaraq müvəkkil kredit təşkilatına getmədən güzəştli kreditlər əldə etmək üçün müraciət edə bilərlər.

**AYTƏN**

# Elektron məkanımız genişlənir

Azərbaycanda getdikcə populyarlaşan «Elektron hökumət» portalı iki illik fəaliyyəti zamanı ölkə əhalisinin ən çox müraciət etdiyi ünvanlardan birinə çevrilib. Dövlət qurumlarının elektron xidmətlərinin bir araya gəldiyi bu portalda vətəndaşlar vaxt və məsrəf sərfi olmadan xidmətlərdən asanlıqla yararlana biliblər. Portalın populyarlığının artırılması istiqamətində ötən il ərzində qeydiyyat prosesinin, portaldan istifadənin sadələşdirilməsi, istifadəçi yönümlü funksionallıqların yaradılması və zəruri olan bir sıra sosial xidmətlərin elektronlaşdırılaraq portala inteqrasiyası üzrə bir çox səmərəli işlər həyata keçirilib. Portaldakı elektron xidmətlərdən istifadə sayı ötən il yanvarın 1-dək 800 min olduğu halda, dekabrın 1-də 5,8 milyonu keçmişdir. Portala daxil olan istifadəçilərin sayının artması ilə yanaşı, vətəndaşlara göstərilən elektron xidmətlərin çeşidi və keyfiyyəti də yüksəlib. Ötən il ərzində «Elektron hökumət» portalına 114 yeni e-xidmət inteqrasiya edilmişdir. Bununla da portalda olan e-xidmətlərin sayı ümumilikdə 396-ya çatdırılmışdır ki, bu da 2013-cü ilin yekunları ilə müqayisədə 40% çoxdur.




Hazırda yeni qurumların, yeni-yeni xidmətlərin portala inteqrasiyası, buradakı mövcud xidmətlərin təkmilləşdirilməsi, qanunvericilik çərçivəsində qurumlar arasında informasiya mübadiləsinin təşkili, istifadəçi yönümlü funsionallıqların yaradılması, istifadəçi ilə portal və qurumlar arasında canlı əlaqə və s. məsələlər üzrə davamlı iş aparılır. Məlumat Hesablama Mərkəzi tərəfindən qurumlara məlumat bazalarının təkmilləşdirilməsi, məlumatların FİN-ə uyğunlaşdırılması istiqamətində hər cür dəstək göstərilir.

Bu ildən portal vasitəsilə «Yaşayış yeri barədə elektron arayışın verilməsi», «Diplom barədə elektron arayışın verilməsi», «Rabitə xidmət borcları olmaması barədə elektron arayışın verilməsi», «Kommunal xidmət borcları olmaması barədə elektron arayışın verilməsi», «Abituriyentin ali məktəbə daxil olması barədə elektron arayışın verilməsi», «İş yeri və əməkhaqqı barədə elektron arayışın verilməsi», «Sağlamlıq barədə tibbi elektron arayışın verilməsi», «Pensiya kapitalı barədə elektron arayışın verilməsi», «Portal vasitəsilə bəzi etibarnamələrin verilməsi, «Şəxsiyyət vəsiqəsinin elektron surəti», «Daşınmaz əmlak barədə reyestrdən çıxarışın elektron surəti», «Vətəndaşın adına olan avtonəqliyyat vasitəsi barədə elektron arayışın verilməsi» kimi xidmətlərin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, «Elektron hökumət» portalına Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilən e-imza kartı ilə, «Asan imza» ilə, elektron hökumət sistemi tərəfindən vətəndaşa verilmiş kod ilə, mobil autentifikasiya sertifikatı və smartfon kimi autentifikasiya vasitələrindən istifadə etməklə daxil olmaq mümkündür.

İstifadəçilərin işini asanlaşdırmaq məqsədilə Məlumat Hesablama Mərkəzi tərəfindən «Elektron hökumət» proqramı çərçivəsində «Data.gov.az» adlı yeni portal yaradılıb. Bu portal vasitəsilə dövlət orqanları tərəfindən yaradılan məlumatlar toplusunu asanlıqla tapmaq, yükləmək və istifadə etmək olar. Portal dövlət orqanlarının məlumatlar toplusunun təsviri, o cümlədən məlumatlar toplusuna və əlavə vasitələrə giriş üçün informasiyanı özündə əks etdirir. Yeni portalın məlumat bazası müntəzəm olaraq təkmilləşdiriləcək.

**A.NƏBİYEVA**

beynəlxalq panoram

# Çin neft məhsullarının istehlakına vergini artırır

*Ölkənin Dövlət Şurası ətraf mühitin qorunması, həmçinin «Çin iqtisadiyyatının daha sağlam və davamlı artımı üçün» neft məhsullarının istehlakına verginin artırılması ideyasını təqdir edib.*



Benzin və sürtgü yağlarının istehlak vergisi 1litrə 0,12 yuan (1,5 qəpik), mazut, aviasiya kerosini və dizel yanacağının istehlak vergisi 1 litrə 0,14 yuan (1,8 qəpik) artacaq. Bu verginin artırılmasından əvvəl 1 litr benzin 1 yuan (1=0,1261) dizel yanacağı 0,8 yuan təşkil edirdi. Maliyyə nazirliyi və dövlət vergi idarəsinin məlumatına əsasən, neft məhsullarının istehlakı üzrə yeni verginin tətbiqindən sonra benzin dövriyyəsindən vergi 32%-dən 34%-dək, dizel yanacağı 29%-dən 31%-dək artacaq.

Neft məhsullarının istehlakı üzrə verginin optimal artımı havanın çirklənməsinin qarşısının alınmasından, tullantıların azaldılmasından, istehlak tələbatının səmərəli tənzimlənməsindən, neft ehtiyatlarının qənaətindən başqa, yeni enerji növləri istehsalının inkişafına, istehsal modelinin transformasiyasının sürətləndirilməsinə və elektrik enerjisinin istehlakına şərait yaradır.

# Litvada əmlak vergisi ödəyicilərinin sayı çoxalır

*Ölkə Seyminin «Əmlak haqqında» Qanuna qəbul etdiyi düzəlişlərə əsasən, daha çox sakin əmlak vergisinə cəlb ediləcək.*

Litvanın təqribən 4700 sakini dəyəri 760 min litdən (220 mln manat) çox olan daşınmaz əmlaka görə 0,5% həcmində vergi ödəməli olacaq. Ölkənini Baş naziri hesab edir ki, bu vergini əsasən əhalinin varlı təbəqəsi ödəyəcək.

Yeni qayda ölkə büdcəsini 15 mln. lit məbləğində artıra bilər.

Seym üzvlərinin təklifinə əsasən, 0,5% vergi tarifi fiziki şəxslərin 220 min manat (759 616 lit) dəyərində olan daşınmaz əmlaklarına tətbiq olunmalıdır.

Qanun 2015-ci ilin əvvəlindən qüvvəyə minib. Daşınmaz əmlak vergisi ötən il üzrə hesablanacaq. Qeyd edək ki, indiyədək fiziki şəxslərin dəyəri 1milyon litdən çox olan əmlakı 1% dərəcə ilə vergiyə cəlb olunurdu.

# Britaniya «Google»a vergi tətbiq edir

*Hökumət xərclərin azaldılmasına, sıravi vergi ödəyicilərinin vergi yükünün aşağı salınmasına və iri vergi ödəyicilərinin vergi yükünün artırılmasına istiqamət götürür. Yeni maliyyə ili üçün ilkin büdcə layihəsi də bu müddəalar üzərində qurulub.*




Layihəni İcmalar Palatasına təqdim edərkən xəzinədarlığın başçısı etiraf edib ki, yaxın illərdə ölkədə büdcə kəsirini və buna müvafiq olaraq dövlət borcunu artırmaq lazım gələcək. Lakin 2019/2020-ci illərə Britaniya «mənfidən çıxaraq müsbətə doğru» gedəcək.

Digər tədbirlər sırasında transmilli şirkətlərə «Google» vergisinin tətbiqi də yer alıb. Böyük Britaniyada əldə olunan və ölkədən çıxarılan mənfəət 25% dərəcə ilə vergiyə cəlb olunacaq.

Qeyd edək ki, beynəlxalq korporasiyalar olan «Google», «Apple», «Amazon» və s. Britaniya qanunlarındakı boşluqlardan istifadə edərək əldə olunan pulları Birləşmiş Krallıqdan vergisi aşağı olan digər Avropa ölkələrinə çıxartmaq üçün istifadə edirlər.

Xarici ölkələrin təcrübəsi

# Sloveniya Respublikası: müəssisələrə tətbiq olunan stimullaşdırıcı güzəştlər

*İnvestisiya güzəştləri:*

Müəssisələrin avadanlıq və qeyri-maddi aktivlər üzrə kapital qoyuluşlarına 40% həcmində investisiya güzəşti (vergitutma bazasının azaldılması) verilir. Vergi ilinin vergitutma bazasına müvafiq olaraq vergi güzəşti məhdudlaşdırılır. İstifadə olunmamış güzəşt isə 5 il müddətinə növbəti dövrə keçirilir. Vergi ödəyicisi əsas vəsaiti növbəti 3 vergi ili ərzində müəssisədən xaric edərsə, istifadə etdiyi investisiya güzəştinin məbləği qədər vergitutma bazasını artırmalıdır.



İnvestisiya güzəşti ofis mebeli, hibrid və ya elektriklə işləyənlər, şəxsi maşın istisna olmaqla, başqa bütün avadanlıqlara və qudvil, əmlak və digər oxşar mülkiyyət hüquqlarından başqa bütün qeyri-maddi aktivlərə tətbiq edilir. Sadalanan avadanlıqların maliyyə lizinqi zamanı da bu güzəşt verilir.

*Araşdırma və inkişaf güzəştləri:*

2012-ci il yanvarın 1-dən müəssisələr daxili araşdırma və inkişaf fəaliyyətinə və ya üçüncü tərəfdən əldə etdikləri araşdırma və inkişaf xidmətlərinə edilən investisiya məbləğinin 100%-i həcmində araşdırma və inkişaf güzəşti (vergitutma bazasının azaldılması) əldə edə bilərlər. Vergi ilinin vergitutma bazasına müvafiq olaraq vergi güzəşti məhdudlaşdırılır. İstifadə olunmamış güzəşt isə 5 il müddətinə növbəti dövrə keçirilir. Araşdırma və inkişaf güzəşti üzrə alınmış əsas vəsaitlərin investisiya güzəştindən istifadə edilməsinə yol verilmir.

*Muzdlu işlə əlaqəli güzəştlər:*

Sloveniyada məşğulluq xidmətində qeydiyyatdan keçmiş işəgötürən tərəfindən işə götürülənə qədər ən azı 6 ay işsiz olan və yaşı 26-ya qədər və ya 55-dən yuxarı olan işçi əməkhaqqından 45% həcmində vergi güzəştinin tətbiq edilməsi üçün müraciət edə bilər. Güzəşt 24 ay müddətində tətbiq edilir. Güzəştin tətbiqi barədə müraciət etmək üçün işəgötürən işçilərin orta illik sayını artırmalıdır.

*İanələr:*

Ümumiyyətlə, ianələr mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılmır. Lakin humanitar, xeyriyyəçilik, elm, təhsil, idman, mədəni, ekoloji və dini məqsədlər üçün Sloveniya və Aİ rezidentləri tərəfindən pul ödənişləri və ya yardımlar vergi ilində vergitutma bazasının 0,3%-i həcmində gəlirdən çıxıla bilər.

Siyasi partiyalara ayrılmış ianələr işçilərin orta aylıq əməkhaqlarının 3 misli qədər həcmində gəlirdən çıxıla bilər.

Vergi ilinin vergitutma bazasına müvafiq olaraq, vergi çıxılmaları məhdudlaşdırılır. Normadan artıq çıxıla bilməyən hissə isə 3 il müddətinə növbəti dövrə keçirilir.

*Tonnaj vergisi:*

Beynəlxalq dənizçilik xidmətinin ümumi 100 tondan artıq olan gəmilərini icarəyə götürən müəyyən rezident və ya qeyri-rezident sahibkarlar və ya müəssisələr mənfəət vergisinin əvəzinə tonnaj vergisini tətbiq edə bilərlər.

Vergitutma bazası gəminin xalis tonnajına əsasən müəyyən edilmiş gündəlik dərəcəni gəminin xidmət göstərdiyi günlərin sayına vurmaqla hesablanır. Vergi dərəcəsi ümumi mənfəət vergisinə (16%) bərabərdir. Tonnaj vergi sxemini tətbiq edən vergi ödəyicisi 10 il müddətinə bu sxemi tətbiq etmək öhdəliyi götürür.

Vergi ili, əsasən, təqvim ili hesab edilir. Lakin müəssisələr təqvim ilindən və maliyyə ilindən fərqli vergi ili seçə bilərlər. Vergi ili 12 aydan artıq dövrü əhatə etməməlidir. Vergitutma bazası vergi ilində yaranan gəlirdən ibarətdir. Xərclərin birdəfəlik gəlirdən çıxılma rejimini tətbiq edən ödəyicilər üçün vergi ili təqvim ilinə bərabər götürülür.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:**

1.Rusiyanın İrkutsk vilayətində şəhər; 2.Azərbaycanda nəşr olunan qəzet; 3.«Dədə Qorqud» filmində (1975) Beyrək obrazını ifa edən aktyorun adı; 4.Cənubi Qafqazda Göyçə gölündən Van gölünə qədər olan ərazilərdə yaranmış dövlət; 5.Azərbaycanın milli hərbi rəqsi; 6.Qısa xülasə; 9.Azərbaycan milli mətbəxində xüsusi yeri olan xörək; 13.Hun hökmdarı (e.ə. 114-105-ci illər); 15.Kiçik ariya; 16.İkinəfərlik velosiped; 17.Səlcuqlar dövünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 18.Hərbi gəmilər sinfi, həmçinin SSRİ-də kompüter markası; 20.Türkiyədə şəhər; 21.Braziliyada çay.

**Soldan sağa:**

1.Böyük Qafqaz silsiləsində - Qusar və Qəbələ rayonları ərazisində zirvə; 5.Zaqatala rayonunda kənd; 7.Balonun içində olan qazın qaldırıcı qüvvəsi sayəsində havaya qalxan havadan yüngül uçucu aparat (hava şarı); 8.Türkiyədə şəhər; 10.Müəyyən əzələnin və ya əzələ qrupunun bir müddət sıxılıb-yığılması, qıc olması; 11.Kimyəvi element (metal); 12.«Dədə Qorqud» dastanında adı keçən ən qədim simli çalğı alətlərindən biri; 14.Xarici banka saxlanılmaq üçün qoyulmuş qiymətli kağız və qızıl, hər hansı bir ölkə bankının xarici bankdakı valyuta vəsaiti; 19.Aralarında olan izdivac və ya qohumluq əlaqələrinə görə bir şəxsin digər şəxsə qanuna uyğun olaraq verməli olduğu dolanacaq xərci; 21.Üst paltar üçün naxışlı yun parça; 22.Stolüstü oyun; 23.Bir və ya bir neçə linzadan ibarət optik cihazın hissəsi; 24.Tarixi mətnlərdə başçı, rəis, rəhbər, eləcə də ağa, bəy mənaları daşıyan söz; 25.Hərbi rütbə.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Miçman; 2.Molyusk; 3.Arısu; 4.İbadan; 5.Sabir; 6.Dekabr; 9.Bakı; 13.Arka; 15.Kadastr; 16.Abajur; 17.Comərd; 18.Tribun; 20.Ramiz *(Mirişli)*; 21.Zumpf.
**Soldan sağa:** 1.Memuarist; 5.Süd; 7.Çaldıran; 8.Abak; 10.Alutu; 11.Anaerob; 12.Aksay; 14.«Vışka»; 19.Barokko; 21.Zadar; 22.Jeme; 23.Təhmasib; 24.İranda şəhər; 25.Xudafərin.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Ötən ilə bir nəzər...

### Azərbaycanda velosiped idmanı sahəsində əldə olunan uğurların qısa xronikası

*Yola saldığımız 2014-cü il Azərbaycan Velosiped İdmanı Federasiyası üçün bir sıra əlamətdar hadisələrlə yadda qaldı.*

İl ərzində kifayət qədər aktiv fəaliyyət göstərən qurum bu idman növünün Azərbaycanda daha da populyarlaşması və kütləviliyin təmin olunması məqsədilə xeyli layihələr həyata keçirdi. Bundan başqa, velosipedçilərimizin ustalıq səviyyələrinin günü-gündən artması və beynəlxalq yarışlarda əldə olunan nəticələr də məqsədyönlü fəaliyyətin uğurlu yekunu kimi dəyərləndirilə bilər.

Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku» 2014-cü ilə ürəkaçan nailiyyətlərlə başladı. Məsələn, ilin ilk yarışı olan, Yeni Zelandiyada təşkil edilən «Cycle Classic» yürüşündə Maykl Şvayzer ən yaxşı sprinter adını qazandı. Daha sonra Metyu Bremmier Malaziyadakı Langkavi turunda ən yaxşı dağ velosipedçisi adına layiq görüldü. Maksim Averinin Xorvatiyada birgünlük «Porec Trophy» yarışında əldə etdiyi birincilik də bu idman növünün həvəskarlarının böyük sevincinə səbəb oldu.

Mayda ev sahibliyi etdiyimiz Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2014» veloyürüşü Avropanın nüfuzlu idman kanalı «Eurosport» kanalı vasitəsilə 28.6 milyon tamaşaçı topladı. Maraqlıdır ki, «Tour d'Azerbaidjan» tamaşaçı sayına görə uzun illərdir keçirilən «Griterium du Dauphine» (14 milyon), «Paris-Nice» (12 milyon), «Paris- Roubaix» (7 milyon), «Milan-San Remo» (4 milyon) kimi tanınmış veloturları qabaqlaya bildi.

Müqayisə üçün deyək ki, 2013-cü ildə «Eurosport» kanalının nümayiş etdirdiyi nüfuzlu velosiped turları içərisində 100 ildən çox keçirilən «Tour de France» yarışına 51 milyon, «Giro d'İtalia»ya 32 milyon, «Vuelta»ya isə 30 milyon tamaşaçı baxıb.

Azərbaycan turundan sonra «Synergy Baku»nun üzvü Markus Eybeger İrlandiyada «An Post Ras» veloyürüşündə «dağ kralı» adına layiq görüldü, həmçinin həmin yarışda Eybeger və Yan Sokol mərhələ qalibi də oldular.

Diqqət çəkən daha bir məqam «Synergy Baku»nun heyətində yer alan gənc velosipedçilərimizin ilin sonuna yaxın özlərini yaxşı tərəfdən göstərmələridir. Məsələn, Samir Cəbrayılov Çində keçirilən beynəlxalq yarışlarda kifayət qədər inamlı təsir bağışladı. Komandamızın yeni üzvləri Ənvər Asanov və İsmayıl İlyasov da getdikcə daha yaxşı çıxış etməyə başladılar.

2014-cü ildə şose velosipedi üzrə yığma komanda səviyyəsində əsas nailiyyət gənc velosipedçimiz Elgün Əlizadənin iyulda İsveçrədə keçirilən Avropa çempionatında 12-ci yeri tutması oldu.

Trek velosipedi üzrə yarışlarda mübarizə aparan yığma komandamızın üzvləri də bizi öz nəticələri ilə sevindirdilər. İyulda Fransada keçirilən birinci kateqoriyalı «Fenioux Piste İnternational» kubokunda yığma komandamızın üzvü Olqa İsmayılova sprint yarışlarında turniri ikinci pillədə başa vurdu. «Fenioux Trophy Piste» kubokunda da uğurla çıxış edən O.İsmayılova 500 metr məsafəyə sprint yarışında daha 1 gümüş medal əldə etdi. Digər velosipedçimiz Yelena Pavluxina da fəxri kürsüyə qalxmağı bacardı. O, 10.000 metr məsafəyə skretçdə mübarizə apararaq yekunda 3-cü nəticə göstərdi.

İtaliyada təşkil edilən birinci kateqoriyalı «Giorni delle Rose» kubokunda isə O.İsmayılova 200 metr məsafəyə sprint yarışlarında bütün rəqiblərini geridə qoyaraq turniri 1-ci pillədə başa vurdu. O, keyrində də uğurla çıxış edərək 2-ci yeri tutdu.

Avqustun ilk günlərində Litvanın Panevejis şəhərində 1-ci kateqoriyalı «Panevejis-2014» yarışı velosipedçilərimiz üçün 2 qızıl, 1 gümüş və 1 bürünc medalla yadda qaldı. Qızıl medalları sprint və keyrin növündə Olqa İsmayılova, gümüş və bürünc medalları isə komandamıza müvafiq olaraq keyrin və 200 metr məsafəyə sprint yarışında çıxış edən Sergey Omelçenko qazandırdı.




Həmin ay Ukraynanın Lvov şəhərində «Galichyna-2014» Qran-Prisi də keçirildi. Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci dərəcəli yarışında Azərbaycan yığma komandasının 2 üzvü - Sergey Omelçenko və Yelena Pavluxina 3 qızıl və 1 bürünc medal əldə etdilər. 10 km məsafəyə skretç yarışında bürünc medal qazanan Y.Pavluxina qrup ötüşməsində hamını qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. S.Omelçenko isə 200 metr məsafəyə sprint yarışlarında və keyrin növündə bütün rəqiblərindən yaxşı çıxış edərək komandamıza 2 qızıl medal qazandırdı.

Oktyabrda əsas diqqət Fransanın Qvadelupa adasında keçirilən Avropa çempionatına yönəlmişdi. Qitənin 30-dan artıq ölkəsinin iştirak etdiyi yarışda Azərbaycan idmançılarından ən yaxşı nəticəni Olqa İsmayılova əldə etdi - o, 200 və 500 metr məsafəyə sprint yarışlarında 4-cü yeri tutmaqla Azərbaycanın bu növ üzrə qitə çempionatlarında ən yüksək göstəricisinə imza atdı. Xatırladaq ki, bu vaxta qədər trek üzrə Avropa çempionatlarında ən yüksək nəticəmiz 2005-ci ilə təsadüf edirdi - 12-ci yer.

Noyabrda Meksikada, dekabrda isə Böyük Britaniyada keçirilən Dünya Kubokunun ilk 2 mərhələsinin yekunlarına əsasən, Olqa İsmayılova, Sergey Omelçenko və Yelena Pavluxina 2015-ci ilin fevralında Fransada keçiriləcək dünya çempionatında iştirak hüququ əldə etdilər.

2014-cü il Azərbaycan velosipedi üçün həm də «Bakı-2015» ilk Avropa Oyunlarının proqramına daxil edilən dağ velosipedi (MTB) üzrə sınaq yarışı ilə də yadda qaldı. Ən yüksək standartlarla inşa edilən Dağ Velosipedi Parkında keçirilən bu yarış tarixdə ilk dəfə keçiriləcək Avropa Oyunlarına ölkəmizin yüksək səviyyədə hazırlaşdığını sübuta yetirdi.

Federasiya tərəfindən velosiped idmanının təbliği istiqamətində də böyük işlər həyata keçirildi. İlin son günlərində təşkil edilən «Tələbə və Məktəbli Kuboku» yarışları, «Velosiped İdmanı gənc rəssamların gözü ilə» sərgisi və «Şaxta baba»ların veloyürüşü ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı.

2015-ci il Azərbaycan velosipedçiləri üçün olduqca məsuliyyətli il olacaq. Çünki ilk Avropa Oyunlarından başqa, velosipedçilərimiz 2016-cı ildə Braziliyada keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xalları qazandıran yarışlarda da iştirak edəcəklər. İnanırıq ki, idman ölkəsi kimi tanınan və günü-gündən çiçəklənən Azərbaycanın 2015-ci ildəki idman uğurlarının sırasında velosipedçilərimizin də payı olacaq.

## mozaika

### 2014-cü ilin on ən maraqlı ixtirası

maraqlı

**«Ağıllı» kosmik gəmi.** İnsanlar uzun müddətdir Mars planetini fəth etməyə çalışırlar. Sentyabrın 24-də ABŞ, Rusiya və Avropa deyil, məhz Hindistanın «Manqalyan» planetlərarası kosmik stansiyası Qırmızı planetin orbitinə çıxıb. Bu kosmik gəmi beş bort qurğusu ilə təchiz edilib, onun tikintisi 74 milyon dollara başa gəlib.

***

**Xoverbord.** Formasına görə skeytbordu xatırladan, amma təkər əvəzinə iki antiqravitatordan ibarət qurğu xoverbord adlanır. Bu qurğunun yaradılması ideyası rejissor Robert Zemekisin «Gələcəyə qayıdış 2» filmindən götürülüb. Xoverbord yer səthindən 3 santimetr hündürlükdə uça bilər, həmçinin bu səth cərəyan keçirməlidir, batareyanın enerji ehtiyatı yalnız 15 dəqiqəyə çatır. İndiyədək yalnız 10 xoverbord hazırlanıb. Ancaq istehsalçılar olduqca qətiyyətlidir və qurğunu təkmilləşdirmək istəyirlər.

***

**3D çap.** İstənilən obyekti istehsal etməyə qadir qurğudur. Bu, elmi fantastika kimi səslənir, amma rəqəmli cizgilər üzrə obyektlər yarada bilən üçölçülü çap qurğularının inkişafı nəticəsində bu fantastika reallığa çevrilir. 3D çap texnologiyası həm korporasiya, həm də istehlakçılar üçün faydalıdır. Ötən il məktəblilər fizika dərsləri üçün maşın modelini 3D printerdə çap ediblər. Təyyarə istehsalçıları reaktiv mühərriklərin effektivliyinin artırılması üçün 3D çapdan istifadə edirlər.

***

**Beli bükülməkdən xilas edən çip.** «Biz, sadəcə, unuduruq ki, beli bükmək lazım deyil», - «Lumo BodyTech» şirkətinin əməkdaşı Monika Perkaş belə deyib. İstifadəçi baş barmaq ölçüsündə bu cihazı öz köynəyinə bərkitdikdən sonra cihaz bel və boynun vəziyyətinin təhlilinə başlayır və qamət düzgün olmadıqda titrəyir. Sistem hələ tam mükəmməl deyil. Buna baxmayaraq, qurğuya tələbat artıq təklifi üstələyir.

***

**Gözdən əlilliyin qarşısını alan banan.** Afrikada 5 yaşınadək uşaqların təxminən 30%-i sadə bir səbəbdən gözdən əlil olmaq riski ilə üz-üzədir: onlar gözlərin normal işi üçün lazımi miqdarda A vitamini qəbul etmirlər. Amma bu uşaqların qida rasionunun çox hissəsini təşkil edən bananı elə təkmilləşdirmək olar ki, vitamin çatışmazlığı aradan qalxsın. Avstraliyalı genetik Ceyms Deyl 2000-ci ilin əvvəlində Uqandaya səfər etdikdə bu ideya onun ağlına gəlib. Elə o zamandan Deyl və komandası A vitamini ilə zəngin «superbanan» yaratmağa başlayıblar. Yaxın vaxtlarda yeni banan sınaqdan keçiriləcək.

***

**«Blackphone».** İspaniyanın «Geeksphone» startapı və «Silent Circle» şifrlənmiş rabitə firması tərəfindən hazırlanmış «Blackphone» dünyanın ilk təhlükəsiz smartfonu kimi təqdim edilib. Aparat telefon zəngləri, elektron məktublar, internet səhifələrini, baxılan mətnləri şifrələyə bilir. Qurğu istənilən GSM daşıyıcı ilə işləyir.

***

**«Apple Watch».** 2014-cü ilin sentyabrında elan edilib, amma hələ satışa çıxarılmayıb. Nüfuzlu «Time» nəşrinin səhifəsində bu cihazın təsvirində yazılıb ki, «Apple Watch» yalnız «ağıllı» saat deyil, həm də kiçik portativ kompüterdir. Bu saat özündə sensor ekran və fiziki düymələri birləşdirir. Qurğu mesaj göndərə, komanda verə, insan orqanizminin göstəricilərini izləyə və kontaktsız ödənişlər edə bilər. «Apple Watch»ın buraxılışı ilə mobil cihazlar bazarı daha yüksək inkişaf mərhələsinə qədəm qoyacaq.

***

**«The Selfie Stick».** «Selfi» üçün ştativ - bu, fotoportretlərin yaradılmasını asanlaşdırmaq üçün nəzərdə tutulub. Tədqiqata görə, amerikalıların ən azı 25%-i ən azı bir dəfə sosial şəbəkədə «selfi» yerləşdiriblər. Bu işdə gəlir görən bəzi şirkətlər «selfi» yaradılması prosesini sadələşdirən qurğunun istehsalına başlayıblar.

***

**«Microsoft Surface Pro 3».** Bu planşet noutbukları əvəz etmək üçün yaradılıb. «Surface Pro 3» - «Microsoft»un istehsalı olan ən nazik və yüngül planşetdir. Nəfis dizayna, dördüncü nəsil «Intel Core i3» prosessoruna, 4 QB əməli yaddaşa, 64 QB tutumunda sərt diskə və daxili «MicroSD» kartoxuyana malikdir. Bu planşet ondan xəbər verir ki, artıq noutbuklar dövrü bitir.

***

**Vacib mesajları xatırladan üzük.** Başqa iş adamları kimi Kristina Merkando da smartfonunu əl çantasında saxlayır. Yəni vacib mesajları yoxlamaq üçün qurğunu vaxtaşırı çantadan çıxarmalı olur. Bəs bütün vacib məlumatları hansısa daşınan qurğudan ala bilmək olmazdımı? Bu cür fikirlər «Ringly» üzük istehsalının yaranması ilə nəticələnib. Bu üzükləri elə proqramlaşdırmaq olur ki, onun sahibi müdirindən elektron məktub, sürücüdən mətn mesajı aldıqda xəbərdarlıq gəlsin. «EBay» hərracında dizayn üzrə menecer olmuş Merkando artıq bu üzüklərin satışından 1 milyon dollardan çox qazana bilib. İyulda buraxılmış 1000 ədəd «Ringly» üzüyü 24 saat ərzində satılıb.

### Diabet riski qan qrupundan da asılı ola bilər

sağlam həyat tərzi

*Fransada epidemiologiya və əhalinin sağlamlığı sahəsində tədqiqatlar mərkəzinin tibb işçiləri tərəfindən aparılmış yeni tədqiqatda alimlər diabet riskinin qan qrupundan da asılı ola bilməsi ehtimalını nəzərdən keçiriblər.*

Ümumiyyətlə, alimlər 80 mindən çox qadına aid məlumatları təhlil ediblər və tədqiqatın nəticələrindən aydın olub ki, 2-ci, 3-cü və 4-cü qan qrupu olan qadınlar 1-ci qan qrupu olan zəif cinsin nümayəndələrinə nisbətən ikinci tip diabetə daha çox meyilli-dirlər. AzərTAc xəbər verir ki, elmi eksperimentin nəticələri «Diabetologia» jurnalında dərc edilib.

Tədqiqatın nəticələri göstərib ki, birinci qan qrupu olan qadınlarla müqayisədə 2-ci qan qrupu olan xanımlar diabetə 10 faiz çox meyilli olublar, üçüncü qan qrupunun nümayəndələrində isə bu risk 21 faiz təşkil edib. Öz növbəsində, dördüncü qan qrupunun nümayəndələrində risk 17 faiz artıq olub. Amma tədqiqatçıların sözlərinə görə, bu nəticələr statistik göstəricilər deyil.

Aydın olub ki, üçüncü qan qrupu və rezus-faktoru müsbət olan xanımlarda diabet riski birinci qan qrupu və mənfi rezus-faktoru olan qadınlarla müqayisədə 35 faiz yüksək olub. Dördüncü qan qrupu və rezus-faktoru müsbət olan iştirakçılarda xəstəliyin inkişaf riski 26 faiz yüksək olub. İkinci mənfi qrupda risk 22 faiz artıb, ikinci müsbət qrupda isə şans 17% çoxalıb.

Alimlər qan qrupu ilə diabet riski arasında əlaqənin əsasında dəqiq hansı səbəblərin durduğunu bilməsələr də, güman edirlər ki, qan qrupu endotelial və ya iltihabi markerlərə təsir göstərə bilər.



### 1990-cı ildən insanın ömür müddəti altı il uzanıb

araşdırma

*Yeni tədqiqatlar göstərib ki, dünyanın demək olar, hər yerində ömür müddəti uzanıb. Zəngin ölkələrdə xərçəngdən və ürək-damar xəstəliklərindən, yoxsul ölkələrdə isə vərəmdən və malyariyadan ölüm halları 25 il qabaqkı göstəricilər ilə müqayisədə xeyli azalıb. Orta ömür müddəti 1990-2013-cü illər dövründə kişilər üçün 5,8 il, qadınlar üçün isə 6,6 il artıb.*

Alimlər ölüm hallarının azalması, ömür müddətinin artması uğrunda mübarizədə birgə səylərin rolunu, habelə potensial öldürücü infeksiyalardan vaksinlərin axtarışının və işlənib hazırlanmasının maliyyələşdirilməsinin əhəmiyyətini vurğulayırlar. Diabet, böyrək xəstəliyi və qaraciyər sirrozu kimi xroniki xəstəliklərin daha ətraflı öyrənilməsi sonrakı mərhələ olacaq.

Tədqiqat göstərib ki, 1990-cı ildən sonrakı dövr ərzində dünya üzrə vaxtsız ölümlərin əsas səbəblərindən biri qaraciyər xərçəngi, ürək ritminin pozulması, narkotiklərdən istifadə, xroniki böyrək xəstəlikləri, qanazlığı, diabet və mədəaltı vəzi xərçəngi olub. Qlobal səhiyyə sahəsi üzrə professor Kristofer Mürrey Vaşinqton Universitetinin (ABŞ) nəzdində apardığı tədqiqatın belə şərh edib: «Biz müxtəlif xəstəliklərə qarşı mübarizədə böyük irəliləyişlər görsək də, daha yaxşı nəticələrə nail olmalıyıq».

**Müdriklər deyib ki...**

***«Sivilizasiyanın başlıca məqsədi insana fikirləşməyi öyrətməkdir».***

**Tomas Edison (1847-1931)**

